RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 19 (10039) 31 yanvar 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Xalqımızın qürur və qəhrəmanlıq simvolu



Göstərilən bütün bu ali diqqət və qayğı Azərbaycan gənclərinin qarşısında həm də böyük məsuliyyət qoyur. Bununla yanaşı, onların güclü və parlaq gələcək qurmaları üçün mühüm motivasiya olur və gənclərimiz onlara göstərilən yüksək etimadı doğrultmaq üçün Azərbaycanın inkişafı naminə bütün güclərini səfərbər edərək səylə çalışırlar.

2020-ci il Vətən müharibəsində Azərbaycan gəncliyi gücünü, iradəsini və vətənə bağlılığını bütün dünyaya nümayiş etdirdi. Gənc əsgər və zabitlərimiz silaha sarılaraq yalnız torpaq uğrunda deyil, həm də xalqın şərəfi və gələcəyi uğrunda döyüşdülər. Vətən uğrunda irəli atılan gənclərimizin hərəsi döyüş meydanında bir tarix yazdı. Lazım gəldikdə hətta ölümün gözünə dik baxaraq, "Vətən sağ olsun!" deyən oğullarımız hər gün ön cəbhədən arxa cəbhəyə qələbə müjdələri çatdırdılar. Qarabağ uğrunda qəhrəmanlıqla savaşan gənclərimiz təkcə güc nümayiş etdirmədilər, həm də milli ruhun daşıyıcısı oldular. Azərbaycan gənclərinin cəsarəti, birliyi və fədakarlığı sayəsində torpaqlarımız işğaldan azad olundu və böyük Zəfər qazandıq. Xalqımızın qürur, fəxarət, güvənc ünvanına çevrilən gənclərimizin 44 günlük savaşda sərgilədikləri misilsiz şücaət və hünərləri gələcək nəsillərə vətən sevgisinin ən ali dərsi kimi qaldı.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən Azərbaycan gəncliyi hər zaman Vətənin keşiyində durmağa hazır olduğunu nümayiş etdirdi və xalqımızı qalib xalq etdi.

"Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi", - deyə 2022-ci il fevralın 2-də Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda bir daha bu vacib məqamı vurğuladı.

6

## Sülh Şurasının təsisçi üzvü kimi Azərbaycanın qlobal rolu daha da artacaq

Azərbaycan regional və beynəlxalq münasibətlərdə sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edən ölkə kimi mövqeyini daha da gücləndirir. Münaqişələrin beynəlxalq hüquq, suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında həllini müdafiə edən Azərbaycan dialoq, diplomatiya və qarşılıqlı etimadın qurulmasını vacib hesab edir. Regional kommunikasiyaların açılması, iqtisadi əməkdaşlığın genişləndirilməsi və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində irəli sürülən təşəbbüslər sülh gündəminin əsas elementləridir. Prezident İlham Əliyevin sülh təşəbbüsləri region üçün həm siyasi, həm də iqtisadi dividendlər qazandırmaqla, Cənubi Qafqazda uzunmüddətli sabitliyin və əməkdaşlığın yaranmasına xidmət edir.

Azərbaycanın Sülh Şurasına təsisçi üzv kimi qoşulması ölkəmizin beynəlxalq miqyasda sülh, dialoq və qarşılıqlı anlaşma dəyərlərinə sadiqliyinin göstəricisidir.

5

## Gənclər ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatında fəal iştirak edirlər

Azərbaycan gəncliyi Prezident İlham Əliyevin daxili və xarici siyasət kursunu dəstəkləməklə yanaşı, bu siyasətin mahiyyətini dərindən dərk edir və ictimai müstəvidə fəal şəkildə təbliğ edir. Gənclər ölkədə sabitliyin, təhlükəsizliyin və inkişafın alternativsiz olduğunu anlayaraq, güclü liderlik institutunun əhəmiyyətini xüsusi vurğulayırlar. Prezident İlham Əliyevin beynəlxalq münasibətlər sistemində Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə etməsi, müstəqil və balanslaşdırılmış xarici siyasət yürütməsi gənclərdə yüksək rəğbət doğurur. Onlar Azərbaycanın beynəlxalq nüfuzunun artmasını, regional və qlobal təşəbbüslərdə fəal iştirakını dövlət başçısının uzaqgörən siyasətinin nəticəsi kimi qiymətləndirirlər.

2020-ci ildə baş vermiş Vətən müharibəsi Azərbaycan gəncliyinin Prezident İlham Əliyevin ətrafında necə sıx birləşdiyini əyani şəkildə nümayiş etdirdi. Gənclər həm ön cəbhədə, həm də arxa cəbhədə misilsiz fədakarlıq göstərərək, Ali Baş Komandanın çağırışlarını böyük ruh yüksəkliyi ilə qarşıladılar.

7




## Revanşistlər TRIPP-a qarşı

TRIPP kimi irimiqyaslı iqtisadi təşəbbüslərə "təhlükə" prizmasından yanaşmaq, ölkənin blokadadan çıxması və qonşularla normal iqtisadi münasibətlərin qurulması bu cür xəstə tiplərin ən böyük qorxusudur. Ermənistanın layihədə "yarım tərəf" olduğunu iddia edənlər onillər boyu kimdənsə qul kimi asılı olduqlarını unudurlar. Azərbaycan və Türkiyənin iştirakı ilə reallaşan layihələr regionda yeni iqtisadi arxitektura formalaşdırır ki, burada iştirak etməmək Ermənistanın özünü zəiflədir. Koçaryanın ABŞ-nin maraqlarını yalnız İranla sərhədə nəzarət kimi təqdim etməsi diqqəti iqtisadi faydadan yayındırıb təhlükəsizlik qayğılarına yönəltmək məqsədi daşıyır. Bu, cəmiyyətdə "böyük güclərin oyuncağı oluruq" qorxusunu alovlandırmaq üçün istifadə edilən klassik metoddur.

7

## Ermənistan yüklərin daşınması üçün ümidini Azərbaycandan keçən marşrutlara bağlayıb



Ermənistan hökumətinin Rusiyadan mayeləşdirilmiş qazı Azərbaycan ərazisindən keçirməklə idxal edəcəyinə dair məlumatlar çoxdan yayılırdı. Bu il yanvarda Azərbaycan Prezidenti İlham Əliyev Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclası zamanı vurğuladı ki, Rusiyadan yüklərin tranzit daşınması ilə bağlı Ermənistandan Azərbaycana müraciət daxil olub. Dövlət başçısı bildirdi ki, de-fakto olaraq birtərəfli şəkildə dəhlizlər Ermənistan üçün açılıb.

5



## Dövlət biznesin etibarlı güvəni, biznes dövlətin iqtisadi dayağıdır

Sahibkarlara dövlət dəstəyi çərçivəsində güzəştli kreditlər, zəmanətlər və subsidiyalar bir çox biznes ideyasının həyata keçməsini mümkün edir. Əvvəllər maliyyə çatışmazlığı səbəbindən fəaliyyətə başlaya bilməyən və ya genişlənməkdə çətinlik çəkən sahibkarlar üçün indi bu dəstək mühüm stimul rolunu oynayır. Onun miqyası və real təsiri rəqəmlərdə də aydın şəkildə öz əksini tapır: bu il yanvarın 1-nə qədər İpoteka və Kredit Zəmanət Fondunun zəmanəti ilə Azərbaycan sahibkarlarına güzəştli şərtlərlə 684 milyon manat kredit verilib ki, bunun da 147 milyon manatı 2025-ci ilin payına düşüb.

9

# Maria K.Papakonstantinu ölkəmizə səfir təyin olunmasından şərəf hissi keçirir

## Prezident İlham Əliyev Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinunu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis ilə COP29 çərçivəsində ölkəmizdə, ötən ilin sentyabrında BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında, həmçinin digər beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırladı, həmin görüşlər əsnasında ikitərəfli əlaqələrimizin müxtəlif aspektləri ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğuladı, bu dialoqun münasibətlərimizin inkişafı üçün çox önəmli olduğunu dedi.

Ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən bu gün qlobal təhlükəsizlikdə mühüm amil olan enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq etdiklərini deyən Azərbaycan Prezidenti gələcəkdə biznes nümayəndələri arasında daha çox təmasların olacağına, qarşılıqlı investisiya qoyuluşunun həyata keçiriləcəyinə, tərəfdaşlığımızın inkişaf etdirilməsində hər iki ölkənin səfirlərinin vacib rol oynayacaqlarına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Maria K.Papakonstantinu ölkəmizə səfir təyin olunmasından şərəf hissi keçirdiyini bildirərək, "yaşıl enerji", kənd təsərrüfatı və digər sahələrdə ikitərəfli əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi. Səfir ölkələrimiz arasında birbaşa hava əlaqəsinin olmasının önəminə toxundu.

Söhbət zamanı siyasət, iqtisadiyyat, energetika, investisiyalar, nəqliyyat, mədəniyyət, incəsənət, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Berlian Helmi xalqlarımız arasında dostluğun daha da möhkəmləndirilməsi üçün səylə çalışacaq

## Prezident İlham Əliyev İndoneziyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı İndoneziya Prezidenti ilə Davosda və Şarm Əl-Şeyxdə təmaslarını xatırladı, onu ölkəmizə rəsmi səfərə dəvət etdiyini bildirdi.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) bu qurumun təsis edilməsindən sonra üzv qəbul edilən ilk ölkə olmasının bizim üçün böyük şərəf olduğunu deyən Prezident İlham Əliyev bu məsələdə təşkilata üzv bütün dövlətlərə, o cümlədən İndoneziyaya minnətdarlığını ifadə etdi. Dövlətimizin başçısı bunu Azərbaycana olan hörmətin və qardaşlığın təcəssümü kimi qiymətləndirdi.

Ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev siyasət, iqtisadiyyat, qarşılıqlı investisiya qoyuluşu, biznes təmasları sahələrində əməkdaşlığı daha da möhkəmləndirməyin önəmini qeyd etdi.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Berlian Helmi fəaliyyəti dövründə dövlətlərimiz və xalqlarımız arasında dostluğun və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi üçün səylə çalışacağını dedi.

Söhbət zamanı Azərbaycan-İndoneziya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Norveçin yeni səfiri qarşılıqlı münasibətlərin inkişafına töhfə verəcəyinə əmindir

## Prezident İlham Əliyev Norveçin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Norveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andreas Qaarderi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkəmizlə Norveç Krallığı arasında ikitərəfli əlaqələrin inkişafının önəminə toxundu. Əməkdaşlığımızın enerji sahəsi ilə başladığını deyən Azərbaycan Prezidenti mövcud münasibətlərin genişləndirilməsi baxımından yaxşı imkanların olduğunu vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycana səfir təyin olunmasından və dövlətimizin başçısı ilə görüşdən məmnunluğunu ifadə edən Andreas Qaarder diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyini vurğuladı.

Səfir Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, Azərbaycanın sülhün gücləndirilməsi üçün səylərini bundan sonra da davam etdirəcəyini dedi.

Andreas Qaarder ölkəsinin Azərbaycanda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunda yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirdi.

Görüşdə həm Azərbaycanın, həm də Norveçin Avropa İttifaqının enerji təchizatçısı olduqları vurğulanaraq, bu xüsusda enerji təhlükəsizliyi məsələləri müzakirə edildi.

Söhbət zamanı ikitərəfli gündəliyimiz, o cümlədən iqtisadiyyat, ticarət, enerji, həmçinin bərpaolunan enerji, sərmayələr, biznes əlaqələrinin qurulması istiqamətlərində əməkdaşlıq, regionda nəqliyyat bağlantılarının qurulması məsələləri ətrafında fikir mübadiləsi aparıldı, COP30 çərçivəsində səmərəli tərəfdaşlıq yüksək qiymətləndirildi.

# Avstraliya Ümumdünya Şəhərsalma Forumunda geniş nümayəndə heyəti ilə təmsil olunacaq

## Prezident İlham Əliyev Avstraliyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Salli-Ann Vinsenti qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı coğrafi baxımdan ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, iqtisadi-ticari, investisiya sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi, siyasi əlaqələrin inkişafını məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycana səfir təyin edilməsindən şərəf hissi duyduğunu deyən Salli-Ann Vinsent bir müddət əvvəl ölkəmizdə olduğunu məmnunluqla xatırladı, əlaqələrimizin genişləndirilməsi üçün səylə çalışacağını qeyd etdi.

Səfir bir neçə gün əvvəl Avstraliyanın milli bayramı münasibətilə dövlətimizin başçısının Avstraliya İttifaqının General-Qubernatoru Samanta Mostinə göndərdiyi məktuba görə minnətdarlığını ifadə etdi.

COP29 çərçivəsində Azərbaycanla Avstraliya arasında qurulmuş əməkdaşlıqdan danışan səfir bu tədbirdə ölkəsinin böyük nümayəndə heyəti ilə təmsil olunduğunu xatırladı. O, həmçinin Avstraliya və Türkiyənin COP31 tədbirini keçirməsi məsələsinə toxunaraq, bu xüsusda Azərbaycanın göstərdiyi səylərin yüksək qiymətləndirildiyini bildirdi.

Salli-Ann Vinsent bu il Azərbaycanın BMT-nin ən mötəbər tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumuna evsahibliyi edəcəyini vurğulayaraq, Avstraliyanın bu tədbirdə də geniş nümayəndə heyəti ilə təmsil olunacağını dedi.

Görüşdə siyasi, iqtisadi, "yaşıl enerji" və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin dərinləşdirilməsi işində mühüm rol oynadığı vurğulandı. Gələn il diplomatik münasibətlərimizin 35-ci ildönümünün qeyd ediləcəyi bildirildi.

# "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 dekabr tarixli 858 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin *(əlavə olunur).*

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2026-cı il*

*Sərəncamın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# 2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2026-cı il Gənclər üçün Prezident mükafatları verilsin:

Ağadadaşov Sərxan Əbülfət oğlu
Ağayev Şahmar Zöhrab oğlu
Həsənova Elmina Qəhrəman qızı
Həsənova Leyla Elçin qızı
İsmayıllı Aynur Telman qızı
İsmayılov Mahmud Azər oğlu
Leysanova Hacıyeva Gülbağda Seyfəl qızı
Məmmədova Lamiyə Famil qızı
Novruzov Səməd Əbülqasım oğlu
Tağızadə Mahir Tahir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2026-cı il*

# S.S.Mikayılovun Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Süleyman Surxay oğlu Mikayılov Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2026-cı il*

# İqtisadi Şuranın iclası



**Yanvarın 30-da Azərbaycan Respublikası İqtisadi Şurasının iclası keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi geniş müsahibədən irəli gələn tapşırıqlar və 2025-ci ilin sosial-iqtisadi inkişaf göstəriciləri, İqtisadi Şuranın 2026-cı il üzrə Fəaliyyət Planı, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın 2025-ci il üzrə monitorinq və qiymətləndirmə nəticələrinə dair Hesabat, "Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrup"un təqdimatı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2025-ci il üzrə Fəaliyyət Hesabatı və 2026-cı il üçün Fəaliyyət Planı və digər aktual məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Natiq Əmirovun və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib.

İqtisadi Şuranın üzvləri, eləcə də ədliyyə naziri Fərid Əhmədov iclasda təqdim olunan məsələlər barədə çıxış ediblər.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Leyla Əliyeva BMT-nin Cenevrədəki ofisinin baş direktoru ilə görüşüb

**Leyla Əliyeva Cenevrədə BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, məhsuldar keçən görüşdə Xəzər dənizinin ekoloji problemləri, ətraf mühitin qorunması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Həmin gün BMT-nin Cenevrədəki mənzil-qərargahında Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi, Caspisnet elmi şəbəkəsi və Tehran Konvensiyası Katibliyinin birgə təşkilatçılığı ilə "Xəzər dənizinin qorunması üçün ətraf mühitin idarə olunmasının və beynəlxalq əməkdaşlığın gücləndirilməsi" mövzusunda yüksəksəviyyəli panel müzakirələri keçirilib.



# Azərbaycanla BƏƏ arasında strateji tərəfdaşlığın vəziyyəti müzakirə olunub

**Yanvarın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycanla BƏƏ arasında strateji tərəfdaşlıq, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, habelə regional və beynəlxalq təhlükəsizlik vəziyyəti müzakirə olunub.



# Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlıq məsələləri müzakirə edilib

**Yanvarın 30-da Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Məsələlər Komitəsinin peşəkar heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə cari regional vəziyyət, 8 avqust Vaşinqton Sülh Sammiti çərçivəsində əldə olunmuş razılaşmaların əhəmiyyəti, Azərbaycan-Ermənistan normallaşma prosesi və sülh sazişi ilə bağlı görülən tədbirlər, yekunlaşmaqda olan ABŞ-Azərbaycan Strateji Tərəfdaşlıq Xartiyası layihəsi, eləcə də ikitərəfli gündəlikdə duran və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Görüş zamanı həmçinin Azərbaycanla bağlı Konqresdə qaldırılmış təşəbbüslər üzrə fikir mübadiləsi aparılıb və Azadlığa Dəstək Aktına 907-ci Düzəlişin Azərbaycana münasibətdə ləğv edilməsinin əhəmiyyəti vurğulanıb.

# Leyla Əliyevanın iştirakı ilə Cenevrədə Xəzər dənizinin ekoloji problemləri müzakirə olunub

**BMT-nin Cenevrədəki mənzil-qərargahında Azərbaycanın Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi, Caspisnet elmi şəbəkəsi və Tehran Konvensiyası Katibliyinin birgə təşkilatçılığı ilə "Xəzər dənizinin qorunması üçün ətraf mühitin idarə olunmasının və beynəlxalq əməkdaşlığın gücləndirilməsi" mövzusunda yüksəksəviyyəli panel müzakirələri keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbirin rəsmi hissəsində çıxış edən Leyla Əliyeva Xəzər dənizinin qlobal əhəmiyyəti, üzləşdiyi ekoloji təhdidlər və onun gələcək nəsillər üçün qorunması məqsədilə elmi tədqiqatlara əsaslanan birgə fəaliyyətlərin əhəmiyyəti barədə məlumat verib. Leyla Əliyeva vurğulayıb ki, dəniz səviyyəsinin azalması və biomüxtəlifliyin itirilməsi prosesləri vaxtında və əlaqələndirilmiş tədbirlər görülmədiyi təqdirdə daha ciddi nəticələrə gətirib çıxara bilər. O, tədbir iştirakçılarını Xəzər dənizi ilə bağlı müzakirələri real nəticələrə gətirən konkret addımlarla davam etdirməyə çağırıb.



BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya və Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov tədbirdə çıxış edərək bu cür müzakirələrin dövlət qurumları, beynəlxalq təşkilatlar və ekspert icması arasında dialoqun inkişafı üçün mühüm əhəmiyyət daşıdığını qeyd ediblər. Onlar ətraf mühitin idarə olunması sahəsində institusional əməkdaşlığın, eləcə də məlumat və təcrübə mübadiləsinin genişləndirilməsinin Xəzər dənizinin qorunması istiqamətində səylərə töhfə verəcəyini bildiriblər.

Daha sonra müxtəlif panel sessiyaları çərçivəsində BMT-nin Ətraf Mühit Proqramının Avropa üzrə regional direktoru Arnold Kraylhuber, Ümumdünya Səhiyyə Təşkilatının Avropa Ətraf Mühit və Səhiyyə Mərkəzinin rəhbəri Françeska Raçioppi, eləcə də Cenevrə Universiteti, "Geneva Water Hub", Caspisnet və bir sıra digər beynəlxalq təşkilat və beyin mərkəzlərinin rəhbər və nümayəndələrinin iştirakı ilə ətraf mühitin idarə olunması, elmi tədqiqatların əhəmiyyəti, eləcə də Xəzərin qorunması istiqamətində beynəlxalq əməkdaşlıq və su diplomatiyasının roluna dair fikir mübadiləsi aparılıb, müxtəlif təşəbbüslər irəli sürülüb.

İştirakçılar üçün həmçinin Xəzər dənizinin ekoloji problemlərinə həsr olunmuş qısametrajlı sənədli film nümayiş olunub. Tədbir sual-cavab formatında təşkil olunan interaktiv sessiya ilə yekunlaşıb.

# Leyla Əliyeva BMT-nin Cenevrə ofisində "Azərbaycan otağı" ilə tanış olub

**Yanvarın 30-da Leyla Əliyeva Cenevrə şəhərində Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisində "Azərbaycan otağı" ilə tanış olub.**



AZƏRTAC xəbər verir ki, tanışlıq zamanı "Azərbaycan otağı"nda istifadə edilmiş konsepsiya və milli elementlər barədə məlumat verilib. Qeyd edilib ki, BMT-nin Cenevrə ofisində az sayda ölkənin öz otağı mövcuddur. Bu otaqlar BMT-nin tədbirləri zamanı müxtəlif sessiyaların, iclasların və görüşlərin keçirilməsində istifadə olunur. Bu baxımdan BMT-nin Cenevrə ofisində "Azərbaycan otağı" ölkəmizin təqdimatı istiqamətində əhəmiyyət kəsb edir.

Qeyd edək ki, BMT-nin Cenevrə bölməsində "Azərbaycan otağı" Heydər Əliyev Fondu tərəfindən yaradılıb. Burada müxtəlif konfrans və görüşlərin keçirilməsi üçün müvafiq şərait yaradılıb, həmçinin otaq müasir proqramlaşdırma və yüksək texnoloji avadanlıqlarla təmin olunub.

"Azərbaycan otağı"nın tərtibatında milli elementlərə, eləcə də Qarabağ xalçası, şəbəkə eksponatı, muğam üçlüyü - tar, kamança və qavala, Azərbaycan təbiəti və memarlığını əks etdirən fotolara yer verilib.







# Dövlət Statistika Komitəsinin nümayəndə heyətinin Vyetnama səfəri başa çatıb



**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində bu ölkənin iqtisadi-maliyyə mərkəzi və əhali sayına görə ən böyük şəhəri olan Ho Şi Min şəhərində bir sıra görüşlər keçirib.**



Ho Şi Min Xalq Komitəsinin sədri Vo Van Minh və Ho Şi Min Şəhər Statistika İdarəsinin direktoru Nguyen Khac Hoang ilə görüşlərdə bir-birinin maraqlarına hörmətlə yanaşan Azərbaycan ilə Vyetnam arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb. Qarşılıqlı səfərlərin təcrübə mübadiləsi və müxtəlif istiqamətlərdə, o cümlədən statistika sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından böyük önəm daşıdığı bildirilib.

Səfər zamanı nümayəndə heyətinin ölkənin neft sənayesi mərkəzi olan Vunqtau şəhərində "Vietsovpetro" şirkətinin rəhbərliyi və Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının Vunqtau bölməsinin üzvləri ilə də görüşü olub. Görüşdə "Vietsovpetro" şirkətinin yaradılmasından bir müddət sonra - 1983-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başçılıq etdiyi SSRİ nümayəndə heyətinin Vunqtauya səfəri və daha sonra Vyetnama göstərilən dəstək sayəsində dənizdə ilk neftin hasil edildiyi xüsusi vurğulanıb. Azərbaycanlı mütəxəssislərin bu ölkənin neft-qaz sənayesinin qurulmasında xidmətlərinin əvəzsiz olduğu, Vyetnamın sözügedən sahədə kadr hazırlığı istiqamətində Azərbaycanın zəngin təcrübəsinin öyrənilməsinə və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə böyük maraq göstərdiyi qeyd edilib. Vunqtau ilə Bakının qardaşlaşmış şəhərlər olduğu bildirilərək iki ölkənin regionları arasında da işbirliyinin perspektivləri müzakirə olunub. Bu sahədə görüləcək işlərin Azərbaycan-Vyetnam münasibətlərinə dinamizm gətirəcəyinə inam ifadə edilib.

Nümayəndə heyəti Ho Şi Min şəhərindəki Müstəqillik sarayını, Vunqtauda isə "Vietsovpetro" şirkətinin muzeyini və Bakı küçəsini ziyarət edib.

Səfər yanvarın 30-da başa çatıb.

# Gömrük əməkdaşlarının peşə bayramı günü münasibətilə tədbir keçirilib










**Yanvarın 30-da Dövlət Gömrük Komitəsinin yaradılmasının 34-cü ildönümü - gömrük əməkdaşlarının peşə bayramı günü münasibətilə tədbir keçirilib.**

Tədbirdən əvvəl Dövlət Gömrük Komitəsinin əməkdaşları Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsi anılıb.

Dövlət Gömrük Komitəsində keçirilən mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan Respublikası Prezidentinin Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi və Dövlət Gömrük Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında sərəncamları tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Təqaüddə olan gömrükçülər adından çıxış edən Nüsrət Qurbanov gömrükçü peşəsinin əhəmiyyətindən bəhs edib, gömrük əməkdaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu vurğulayıb.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov Prezident İlham Əliyev tərəfindən gömrük xidmətinə göstərilən diqqət və qayğıya görə çoxsaylı gömrük əməkdaşları adından minnətdarlığını bildirib, peşə bayramı günü münasibətilə bütün şəxsi heyəti təbrik edib. Qeyd edilib ki, dövlət başçısının strateji baxışı nəticəsində gömrük sisteminin inkişafı üçün konkret hədəflər müəyyən olunub və bu hədəflərə nail olmaq məqsədilə ardıcıl tədbirlər həyata keçirilir, gömrük əməkdaşları qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün bundan sonra da bütün qüvvə və bacarıqları ilə çalışacaqlar.

Dövlət Gömrük Komitəsinin 2025-ci ildəki fəaliyyətində baş verən mühüm hadisələr və yeniliklərlə bağlı videoçarx nümayiş etdirilib.

Xidmətdə fərqlənən gömrük əməkdaşları ilə bağlı təltif əmrləri də tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Sonda tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə gömrük xidməti əməkdaşlarına göstərilən qayğı və diqqətə görə minnətdarlıq bildirilib və müraciət ünvanlanıb.

# *Yeni Kaledoniya:* İğtişaşlar zamanı təhlükəsizlik qüvvələrinin fəaliyyəti və bütövlükdə məhkəmə sisteminin davranışı CNCDH-nin hesabatında tənqid edilib

**İnsan hüquqları üzrə milli məsləhətçi komissiya (La Commission nationale consultative des droits de l'homme - CNCDH) yanvarın 29-da Kanakidə (Yeni Kaledoniya) baş vermiş etiraz aksiyalarına dair rəsmi hesabat dərc edib.**




AZƏRTAC xəbər verir ki, həmin sənəddə Fransa dövlət orqanları tərəfindən kanak xalqına qarşı tətbiq edilmiş zorakı müdaxilələrin sistemli xarakter daşıdığı, hüquq-mühafizə orqanları tərəfindən qeyri-mütənasib və əsassız güc tətbiq olunduğu vurğulanıb, bu repressiv yanaşmanın fundamental insan hüquqları və beynəlxalq öhdəliklər ilə açıq ziddiyyət təşkil etdiyi kəskin şəkildə tənqid olunub.

Hesabatda Kanakidə dinc aksiyalar zamanı təhlükəsizlik qüvvələrinin fəaliyyəti, habelə məhkəmə orqanlarının və bütövlükdə ədliyyə sisteminin davranışı beynəlxalq insan hüquqları standartları prizmasından sistemli şəkildə təhlil edilib. Aparılmış qiymətləndirmə nəticəsində hüquq-mühafizə və məhkəmə institutlarının fəaliyyətində ciddi uyğunsuzluqlar aşkarlanıb. Bu uyğunsuzluqlar müvafiq dövlət orqanlarının institusional məsuliyyəti, hüquqi prosedurların pozulması və Fransanın üzərinə götürdüyü beynəlxalq öhdəlikləri icra etməməsi kontekstində əsaslandırılıb.

Fundamental hüquqlara dair pozuntularla bağlı rəyin həmməruzəçisi Tartakovski dövlət institutlarının fəaliyyətində çoxsaylı struktur, hüquqi və əməliyyat xarakterli çatışmazlıqların sistemli şəkildə üzə çıxdığını bildirib.

Hesabatda qeyd edilir ki, 2024-cü il mayın 13-dən bəri arxipelaqda seçici korpusunun zorla dəyişdirilməsinə qarşı etirazlarla əlaqədar zorakılıq hadisələrinin intensivləşdiyi dövrdən başlayaraq təhlükəsizlik qüvvələri tərəfindən kanak əhalisini hədəf alan zorakı repressiv tədbirlər həyata keçirilib.

Komissiya Fransanın məhkəmə sisteminin hadisələrə reaksiyasını da sərt şəkildə tənqid edir. Bildirir ki, əhalisi təxminən 260 min nəfər olan arxipelaqda 6 minədək polis və jandarmın yerləşdirilməsi fonunda, baş vermiş zorakılıq hadisələri ilə əlaqədar 2528 nəfər saxlanılıb, 500-dən çox şəxs barəsində isə məhkəmə icraatı başlanılıb. Komissiyanın qiymətləndirməsinə görə, bu repressiv tədbirlər faktiki olaraq yalnız kanak əhalisinə qarşı yönəlib.

Hesabatın digər bölməsində qeyri-qanuni olaraq həbs edilmiş kanak məhkumların həbsxanalarda saxlanma şəraitinə yer ayrılıb. Həbsxanada qeyri-insani davranış, məhkəmə qərarı olmadan insanların cəzaçəkmə müəssisələrinə yerləşdirilməsi nəticəsində həbsxana daxilində etiraz aksiyaları, hətta üsyanlar baş verib. Hadisələr zamanı bir məhbusun həyatını itirdiyi qeyd edilir və şahidlərin ifadələrinə görə, həmin şəxsin təhlükəsizlik qüvvələrinin tətbiq etdiyi zorakılıq nəticəsində həlak olduğu xüsusi vurğulanır.

Komissiya qeyd edir ki, materik Fransaya köçürülən məhbuslar hazırda bir sıra ciddi çətinliklərlə üzləşirlər. Belə ki, materik Fransada evlərindən təxminən 17 min kilometr uzaqda saxlanılan şəxslərin qış geyimi və geri dönüş bileti olmadan azad edilməsi, hüquqi təminatlarının kobud şəkildə pozulması ilə yanaşı, ədalətin mahiyyətinə və legitimliyinə ciddi zərbə vurur.

Hesabatın müəllifləri zorakılıqlardan sonrakı dövrü də təhlil ediblər. İğtişaşların yaratdığı dağıntılar səbəbindən Kanakidə iqtisadiyyat ciddi şəkildə zərər görüb, böhrandan sonrakı aylarda bir sıra sosial proqramlar dayandırılıb.

Hesabatın yekununda komissiya bir sıra tövsiyələr irəli sürərək, polis zorakılığı ilə bağlı halların müstəqil və əhatəli şəkildə araşdırılmasının təmin edilməsini, həbsxanalarda saxlanma şəraitinin beynəlxalq insan hüquqları standartlarına uyğun şəkildə yaxşılaşdırılmasını müvafiq orqanların diqqətinə çatdırır.

# ÜGT-nin Texnologiya Konfransı və Sərgisi

Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ümumdünya Gömrük Təşkilatının Texnologiya Konfransı və Sərgisi keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.



"Mürəkkəb dünyada gömrük xidmətlərinin çevikliyi: İnnovasiyalar vasitəsilə ticarətin təhlükəsizliyinin təmin olunması və asanlaşdırılması" mövzusuna həsr edilmiş tədbirdə "Daha təhlükəsiz ticarət üçün sərhədlərin qorunması", "Rəqəmsal həllər vasitəsilə ticarətin asanlaşdırılması" və "Gömrüyün gələcəyi üçün innovasiyalar" mövzuları ətrafında müzakirələr və fikir mübadiləsi aparılıb.




# "MOL şirkətinin "Şahdəniz" qaz yatağının işlənməsində iştirakı Macarıstan üçün strateji əhəmiyyətə malikdir"

**"Şərqi və Mərkəzi Avropa ilə qarşılıqlı əlaqə kontekstində Azərbaycanın iqtisadi potensialı, əsasən, enerji sektorunun inkişafı və şaxələndirilməsi ilə müəyyən edilir".**

Bunu AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və Dünya" proqramının son bölümündə beynəlxalq və iqtisadi inkişaf üzrə macarıstanlı ekspert Matyaş Kohan bildirib.

O, MOL şirkətinin "Şahdəniz" qaz yatağının işlənməsində iştirakının Macarıstan üçün strateji əhəmiyyətə malik olduğunu bildirib, çünki ölkə enerji idxalından çox asılıdır. Ekspert qeyd edib ki, bu amil Avropa bazarında qaz qiymətlərinin dəyişkənliyindən asılılığı azaltmağa kömək edir.



Kohan vurğulayıb ki, bu gün Azərbaycanın enerji gündəliyi yalnız karbohidrogen layihələrini deyil, həm də bərpaolunan enerji mənbələrinin inkişafını əhatə edir. O, ölkənin "yaşıl enerji" sahəsində yüksək potensialına, Macarıstandan və Avropa İttifaqının digər ölkələrindən xarici investisiyaların cəlb edilməsi üçün şərait yaradan dövlət proqramlarının mövcudluğuna diqqət çəkib.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Sülh Şurasının təsisçi üzvü kimi Azərbaycanın qlobal rolu daha da artacaq

**Azərbaycan tarixi qələbə qazanmaqla, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə yanaşı, regionda yeni geosiyasi reallıq yaradaraq, sülhün təməlini qoyub. Ölkəmiz qələbədən sonrakı illər ərzində tarixi Zəfərimizin reallıqlarının beynəlxalq səviyyədə təqdimatı və qəbul etdirilməsi istiqamətində səylər göstərərək, buna nail olub.**



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, ötən il avqustun 8-də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə bu ölkəyə işgüzar səfəri bütün məqamlara işıq salıb. Dövlət başçısının Vaşinqtona səfəri yalnız Azərbaycan-ABŞ münasibətlərinin inkişafı baxımından deyil, eyni zamanda beynəlxalq informasiya müstəvisində ölkəmizin mövqeyinin güclənməsi və diplomatik sahədə əldə etdiyi növbəti uğur kimi dəyərləndirildi.

Regionda artıq geri dönməz xarakter daşıyan sülh gündəliyinin müəllifinin Prezident İlham Əliyev olduğunu vurğulayan deputat deyib ki, Azərbaycan yalnız sülh gündəliyini təqdim etmir, buna nail olmaq üçün sistemli, qətiyyətli və konkret addımlar atır: "Azərbaycan regional və beynəlxalq münasibətlərdə sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edən ölkə kimi mövqeyini daha da gücləndirir. Münaqişələrin beynəlxalq hüquq, suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında həllini müdafiə edən Azərbaycan dialoq, diplomatiya və qarşılıqlı etimadın qurulmasını vacib hesab edir. Regional kommunikasiyaların açılması, iqtisadi əməkdaşlığın genişləndirilməsi və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində irəli sürülən təşəbbüslər sülh gündəminin əsas elementləridir. Prezident İlham Əliyevin sülh təşəbbüsləri region üçün həm siyasi, həm də iqtisadi dividendlər qazandırmaqla, Cənubi Qafqazda uzunmüddətli sabitliyin və əməkdaşlığın yaranmasına xidmət edir".

Deputat deyib ki, Azərbaycanın Sülh Şurasına təsisçi üzv kimi qoşulması ölkəmizin beynəlxalq miqyasda sülh, dialoq və qarşılıqlı anlaşma dəyərlərinə sadiqliyinin göstəricisidir. Bu təşəbbüs Azərbaycanın qlobal təhlükəsizliyinin möhkəmləndirilməsi, münaqişələrin dinc yolla həlli və xalqlar arasında əməkdaşlığın inkişafına verdiyi töhfəni əks etdirir. Sülh Şurasının təsisçilərindən biri kimi Azərbaycan beynəlxalq platformalarda fəal iştirak etməklə, sülh gündəliyinin formalaşmasına və qlobal etimadın güclənməsinə töhfə verəcəkdir.

V.Rəhimzadə Davos İqtisadi Forumu çərçivəsində Azərbaycanın da təsisçi üzvlər sırasında olduğu "Sülh Şurası Nizamnaməsi"nin imzalanma mərasiminin keçirildiyini xatırladaraq deyib ki, Şuranın əsas məqsədləri arasında münaqişələrdə davamlı barışığın təşviqi, sülhün dəstəklənməsi, beynəlxalq dialoq və əməkdaşlığın gücləndirilməsi yer alır. Azərbaycanın ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasına təsisçi üzv kimi qatılması dövlətimizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, qlobal siyasətdəki rolunu daha da artıracaq.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Ermənistan yüklərin daşınması üçün ümidini Azərbaycandan keçən marşrutlara bağlayıb

### Bunun həyata keçirilməsi iki ölkə arasında etimad quruculuğunu möhkəmləndirəcək

**Ermənistanın enerji bazarında yaranmış böhran fonunda rəsmi İrəvan və Bakı arasında strateji əhəmiyyətli razılaşma əldə olunub. Ermənistanın iqtisadiyyat naziri Gevork Papoyan və nazirliyin sözçüsü Lilit Şaboyan təsdiqləyiblər ki, ölkədəki maye qaz (LPG) və bitum qıtlığını aradan qaldırmaq üçün Rusiya yükləri İrəvana Azərbaycanın dəmir yolu şəbəkəsi ilə daşınacaq.**

Ermənistan rəsmiləri bildiriblər ki, hazırda ölkə maye qaz idxalı ilə bağlı ciddi problemlə üzləşib. Ermənistanın maye qaz və bitum təchizatında Rusiya və İran əsas mənbə rolunu oynayır. Lakin son dövrlər İrandakı daxili vəziyyətin logistik və gömrük əməliyyatlarına mənfi təsiri, həmçinin əlverişsiz hava şəraiti səbəbindən Gürcüstan istiqamətindəki magistralın sıradan çıxması İrəvanı yeni nəqliyyat dəhlizləri axtarmağa sövq edib. Bu çərçivədə Azərbaycan ərazisindən keçən dəmir yolu infrastrukturu əsas alternativlərdən biri kimi gündəmə gəlib. Ermənistan İqtisadiyyat Nazirliyindən bildirilib ki, problem tezliklə həll olunacaq və Ermənistana dəmir yolu ilə maye qaz idxalına başlanılacaq: "Rusiyanın maye qazı çox tezliklə Azərbaycan ərazisi ilə Ermənistana çatdırılacaq".

Ermənistan hökumətinin Rusiyadan mayeləşdirilmiş qazı Azərbaycan ərazisindən keçirməklə idxal edəcəyinə dair məlumatlar çoxdan yayılırdı. Bu il yanvarda Azərbaycan Prezidenti İlham Əliyev Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclası zamanı vurğuladı ki, Rusiyadan yüklərin tranzit daşınması ilə bağlı Ermənistandan Azərbaycana müraciət daxil olub. Dövlət başçısı bildirdi ki, de-fakto olaraq birtərəfli şəkildə dəhlizlər Ermənistan üçün açılıb: "Bəli, hazırda nəqliyyat Gürcüstan vasitəsilə həyata keçirilir. Amma bir gün Ermənistandan birbaşa Azərbaycan vasitəsilə tranzit təmin ediləcək və o gün uzaqda deyil". Cənab Prezidentin sözləri ondan xəbər verirdi ki, Azərbaycan sadəcə tranzit ölkə deyil, həm də Ermənistanı iqtisadi dalandan çıxara biləcək yeganə mərkəzdir. İlham Əliyevin Davosdakı mesajı birbaşa kommunikasiyaların açılmasının alternativsizliyini diqqətə çatdırır. Əslində, Ermənistan rəhbərliyinin müraciəti gecikmiş etirafdır. Bakının razılığı və Azərbaycanın logistik dəstəyi olmadan İrəvanın nə enerji təhlükəsizliyini, nə də daxili bazarın sabitliyini qoruması mümkündür.

Hələlik qazın idxal edilməsinin vaxtı və hansı şirkət və ya şirkətlər tərəfindən yerinə yetiriləcəyi müəyyən edilməyib. Lakin vurğulanıb ki, son iki ayda Ermənistanda maye qazın 1 litrinin qiyməti 160 dramdan (72 qəpik) 300 drama (1 manat 36 qəpik) yüksəlib. Bir çox yanacaq satan məntəqələrdə isə "qaz yoxdur" lövhələri asılıb. Azərbaycan ərazisindən tranzitin bərpası Ermənistanda təkcə qıtlığı aradan qaldırmayacaq, həm də logistik xərclərin aşağı düşməsi nəticəsində qazın qiymətində yenidən ucuzlaşmaya səbəb olacaq. Bu, həm də Ermənistanın Azərbaycanın nəqliyyat qovşağı kimi regional əhəmiyyətini praktiki olaraq qəbul etməsi deməkdir.

Qeyd edək ki, Rusiya sərhədindən daxil olan yüklərin Bakı-Gəncə-Böyük Kəsik xətti ilə Gürcüstan sərhədinə qədər çatdırılmsı üçün təxminən 500 km məsafə qət edilməlidir. Qardabani məntəqəsindən keçərək Tbilisi istiqamətinə, oradan isə Ermənistan sərhədinə (Sadaxlo-Ayrum keçidi) qədər 120 kilometr yol gedəcək. Bu zəncirvari logistika Rusiya yüklərinin dağlıq yollardan deyil, daha sabit olan dəmir yolu infrastrukturu ilə birbaşa Ermənistana çatdırılmasını təmin edəcək. Bu marşrut həm vaxt, həm də təhlükəsizlik baxımından daha əlverişli hesab olunur.

2025-ci ilin oktyabrında Azərbaycan Prezidenti İlham Əliyev Ermənistana yük tranzitinə qoyulan məhdudiyyətlərin aradan qaldırıldığını bildirmişdi. O vaxtdan indiyədək bu istiqamətdə birbaşa və tranzit dəmir yolu daşımaları həyata keçirilir. Ötən ilin noyabrından etibarən Rusiya və Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana daşınmasına başlanılıb. Azərbaycandan ilk neft məhsullarının partiyası 2025-ci ilin dekabr ayında Ermənistana çatdırılıb. İkinci və üçüncü partiyalar müvafiq olaraq 9 və 11 yanvar tarixlərində həyata keçirilib. Üç partiya halında ümumilikdə beş min tona yaxın yanacaq Ermənistan bazarına daxil olub.



Ermənistanın Rusiya maye qazının tədarükü üçün Azərbaycan marşrutuna üz tutması Cənubi Qafqazda yeni bir dövrün başlandığının ən bariz göstəricisidir. İllərdir davam edən nəqliyyat blokadasının iqtisadi zərurətlər qarşısında geri çəkilməsi göstərir ki, regionda davamlı sülhün yolu məhz qarşılıqlı iqtisadi mənfəətlərdən və logistik inteqrasiyadan keçir. Bu razılaşma təkcə Ermənistandakı enerji böhranını və süni qiymət artımını cilovlamaqla kifayətlənmir, həm də Azərbaycanın regionda əvəzolunmaz nəqliyyat habı olmasını bir daha təsdiqləyir. Nəticə etibarilə, bu marşrut sadəcə enerji daşımır, həm də regionun gələcəyi üçün yeni və dinc dövrün, sabitlik modelinin təməlini qoyur. Beləliklə, iqtisadi maraqların siyasi ritorikanı üstələməsi sülh müqaviləsinin imzalanması yolunda ən mühüm etimad quruculuğu tədbirinə çevrilir.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

## Azərbaycanın sülh siyasəti beynəlxalq miqyasda təqdir edilir

**Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondu tərəfindən 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi təkcə fərdi mükafatlandırma deyil, Azərbaycanın son illərdə həyata keçirdiyi sülh siyasətinin beynəlxalq miqyasda qəbul və təqdir olunmasının bariz göstəricisidir. Fondun rəsmi məlumatında vurğulandığı kimi, bu mükafat Qafqazda onilliklər boyu davam etmiş münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə təqdim olunur.**



Milli Məclisin deputatı Sevil Mikayılova "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Şeyx Zayed Fondu BƏƏ-nin mərhum qurucusu Şeyx Zayed bin Sultan Al Nəhyanın irsini yaşadan, dialoq, tolerantlıq, multikulturalizm və birgəyaşayış dəyərlərini təşviq edən ən nüfuzlu beynəlxalq platformalardan biridir: ""Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülhün, qarşılıqlı anlaşmanın və humanist liderliyin simvolu hesab olunur. Bu mükafata layiq görülmək yalnız regional deyil, qlobal miqyasda müstəsna siyasi və mənəvi məsuliyyətin göstəricisi kimi dəyərləndirilir. Mükafatçıların dialoq və birgəyaşayış sahəsində tanınmış mütəxəssislərdən ibarət müstəqil beynəlxalq münsiflər heyəti tərəfindən seçilməsi onun obyektivliyini və nüfuzunu daha da artırır".

Deputat Şeyx Zayed Fondunun Baş katibi Məhəmməd Əbdülsəlamın açıqlamasına xüsusi diqqət çəkərək deyib: "Baş katib bildirib ki, bu il "Zayed İnsan Qardaşlığı Mükafatı" komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçib. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirir. Bu, qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur. Əslində, bu mükafat bir daha sübut edir ki, Azərbaycan müharibədən sonra revanşizm və qeyri-müəyyənlik deyil, dayanıqlı sülh və qarşılıqlı tanınma yolunu seçib".

S.Mikayılova qeyd edib ki, Prezident İlham Əliyevin liderliyi - hərbi qələbəni siyasi və diplomatik qələbə ilə tamamlayan lider modeli müasir beynəlxalq münasibətlərdə nadir hallarda rast gəlinən bir nümunədir. 44 günlük Vətən müharibəsində əldə olunan qəti qələbədən sonra Azərbaycanın sülh təşəbbüsləri regionda yeni reallıqlar formalaşdırıb. Ölkəmizin seçdiyi sülh yolu asan olmayıb. "Ermənistan daxilində revanşist dairələrin sülh prosesini pozmaq cəhdləri, xarici təsir mərkəzlərinin regionda yeni gərginlik yaratmaq səyləri fonunda Azərbaycan prinsipial və qətiyyətli mövqe nümayiş etdirib. Rəsmi Bakı açıq şəkildə bəyan edib ki, sülh alternativsizdir və bu proses Azərbaycanın milli maraqları çərçivəsində reallaşmalıdır. Məhz bu qətiyyət nəticəsində 2025-ci ilin avqustunda Vaşinqtonda aparılan danışıqlarla məsələyə faktiki olaraq nöqtə qoyuldu və regionda uzunmüddətli qarşıdurma riski aradan qaldırıldı", - deyə Sevil Mikayılova əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycanın münaqişənin həllində ortaya qoyduğu model artıq beynəlxalq səviyyədə öyrənilən və müzakirə olunan təcrübəyə çevrilib. Ərazi bütövlüyünün bərpası, beynəlxalq hüququn təmin edilməsi, bundan sonra sülhə əl uzadılması nadir hallarda rast gəlinən ardıcıllıqdır. "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Prezident İlham Əliyevə təqdim olunması göstərir ki, dünya birliyi Azərbaycanın bu yanaşmasını təkcə regional uğur deyil, qlobal sülh üçün nümunə kimi qiymətləndirir. Mükafatın fevralın 4-də Əbu-Dabidə təqdim olunması isə Azərbaycanın beynəlxalq siyasi nüfuzunun daha da möhkəmləndiyini təsdiqləyəcək. Nəticə etibarilə bu mükafat bütövlükdə Azərbaycanın ədalətə, sülhə və dayanıqlı inkişaf modelinə sadiqliyinin rəsmi beynəlxalq etirafıdır.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

## Amerika ilə əməkdaşlığın strateji səviyyəyə yüksəlməsi Azərbaycana siyasi və təhlükəsizlik zəmanəti qazandıracaq

**ABŞ-nin vitse-prezidenti Cey Di Vensin fevral ayında regiona səfəri artıq dəqiqləşib. Bu barədə Prezident Donald Tramp məlumat verərək bildirib ki, vitse-prezident ABŞ-nin dostu olan iki Cənubi Qafqaz respublikasına (Azərbaycan və Ermənistan) səfər edəcək.**

AZƏRTAC xəbər verir ki, ilk dəfə ABŞ-nin yüksəksəviyyəli rəsmi şəxsi Azərbaycana 2008-ci ilin sentyabrında səfər edib. Həmin dövrdə vitse-prezident olan Dik Çeyni Ermənistana deyil, Azərbaycan və Gürcüstana səfər etmişdi. Həmin vaxt Ermənistan Rusiyanın "forpost"u olduğu üçün ABŞ-nin diqqətindən kənarda qalaraq Qarabağda separatizmi gücləndirirdi ki, ABŞ şirkətləri regiona sərmayə yatırmasın, ümumilikdə, rəsmi Vaşinqton Cənubi Qafqaza nüfuz edə bilməsin.

Bu gün isə Ağ Ev administrasiyası prioritetlərini dəyişib və məsələ heç də dünyaya hegemonluq edib regionları nəzarət altına saxlamaqdan getmir. Məsələnin mahiyyəti iqtisadi əməkdaşlıqdan, biznes mühiti formalaşdırmaqdan, iqtisadi dividendlər əldə etməkdən gedir ki, bu da təsadüfi deyil. Amerika dünyanın sırf kapitalist ictimai-iqtisadi formasiyasına malik olan dövlətdir və ona bəlkə də dünyanın ən uğurlu biznesmeni rəhbərlik edir.

ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri, görkəmli politoloq Zbiqnev Bzejinski (1928-2017) özünün məşhur "Böyük şahmat taxtası" kitabında yazırdı ki, "Xəzər dənizi Mərkəzi Asiya ölkələrinin enerji resurslarının və sərvətinin Avropaya açılması üçün açar rolunu oynayır. Buna görə də Azərbaycan böyük geosiyasi əhəmiyyətinə malik olan ölkədir". Onun fikrincə, ABŞ daim Cənubi Qafqazı diqqətdə saxlamalı, buradakı dövlətlərlə əməkdaşlıq əlaqələrini genişləndirməlidir. Politoloq qeyd edirdi ki, ABŞ 2033-cü ilə kimi dünyanın vahid hegemon dövləti olaraq qalacaq və 2033-cü ildən sonra isə öz hegemonluğunu müttəfiqlik siyasəti ilə davam etdirəcək. Görkəmli politoloqun fikirləri bu gün özünü doğruldur və ABŞ Cənubi Qafqaza diqqətini artırmaqla burada müttəfiqlər qazanır.



ABŞ-nin Cənubi Qafqazda maraqlarının ciddi formalaşmasını şərtləndirən əsas amillər regionun coğrafi mövqeyi, geostrateji mövqeyi və malik olduğu zəngin enerji ehtiyatlarıdır. Bu amilləri nəzərə alaraq Birləşmiş Ştatlar son otuz ildə regionla bağlı prioritetlərini belə müəyyənləşdirib: təhlükəsizlik, enerji və islahatlar. 1990-cı illərin əvvəllərindən günümüzə kimi dəyişən Ağ Ev administrasiyalarının regionla bağlı siyasətində məhz bu prioritetlər üstünlük təşkil edib. Vaşinqtonda belə bir qənaət formalaşıb ki, Cənubi Qafqaz dövlətləri ilə hər üç sahədə əməkdaşlığın dərinləşdirilməsi ABŞ-nin, bütövlükdə Qərbin regionda geostrateji maraqlarının təmin edilməsi baxımından əlverişli mühit yaradır.

Kopenhagen Universitetinin siyasi elmlər kafedrasının Qafqaz üzrə elmi şəbəkəsində (Caucasus Mountain Region Scientific Network) Kamilla Xoxor və Pol Viberq Yorqensenin "ABŞ-nin Cənubi Qafqazda strateji imkanları" məqaləsində deyilir ki, Cənubi Qafqaz bölgəsinə qarşı ardıcıl siyasət aparılaraq inkişaf etdirilərsə, ABŞ geniş strateji üstünlüklər əldə edə bilər. Bu region geosiyasi üstünlüyün əldə edilməsini təmin edən vacib regiondur.

Göründüyü kimi, bütün bunlar ABŞ-nin regiona nüfuz etməsini, sadəcə olaraq yalnız iqtisadi maraqlar deyil, həm də geosiyasi faktorlar şərtləndirir. Lakin Z.Bzejinskinin qeyd etdiyi kimi, bu gün ABŞ 2033-cü ilə hazırlaşaraq müttəfiqlərinin sayını artırmağa çalışır və adekvat olaraq ABŞ ilə müttəfiq olmaq müasir dünyada üstün mövqe qazanmaqdır. Vaşinqton müttəfiqliyi iqtisadi əməkdaşlıqla, sərmayə və qarşılıqlı faydalı biznes layihələri ilə əldə etməyə cəhd göstərir ki, qarşılıqlı faydalı əməkdaşlıq eləcə də, müttəfiqlik strateji xarakter daşısın, dayanıqlı və etibarlı olsun.

Bu baxımdan, vitse-prezident Cey Di Vensin səfəri tanışlıq xarakteri daşıyır. Səfər çərçivəsində Zəngəzur dəhlizinin də təməlqoyma mərasiminin keçirilməsi gözlənilir.

Amerikanın strateji maraqlarını Cənubi Qafqazda iki mühüm faktor təmin edir. Bunlardan biri tranzit nəqliyyat dəhlizləri, digəri isə regionun ABŞ-nin geosiyasi rəqiblərinin qonşuluğunda yerləşməsidir. İkinci faktor birincidən doğur. Belə ki, Zəngəzur dəhlizinin fəaliyyətində maraqlı olan ABŞ onun təhlükəsizliyini də qorumalı və rəqiblərinin regionda destabil vəziyyət yaratmasına imkan verməməlidir. Digər tərəfdən, ABŞ-nin Azərbaycana marağının əsas səbəblərindən biri də rəsmi Bakının müstəqil xarici siyasət apararaq iqtisadi inkişafa diqqət ayırması, beynəlxalq layihələrə müəlliflik etməsindədir. Azərbaycan böyük qüvvələrin "forpost"u olub separatçılara dəstək verməkdə, geosiyasi oyunlarda alət olmaq siyasətindən çox uzaqdır.

Beləliklə, ABŞ-nin vitse-prezidentinin regiona səfərinin Azərbaycan üçün faydalı olacağı şübhəsizdir. Əvvəla, Ermənistan ilə sülh prosesi sürətlənəcək və sülh müqaviləsi imzalanarsa, dayanıqlı olacaq. Digər tərəfdən, Azərbaycanın müttəfiq seçilərək onun daha da inkişafına nail olmaq məqsədilə 907-ci düzəlişin aradan qaldırılması aktuallaşacaq, Zəngəzur dəhlizinin infrastrukturu üçün sərmayə ayrılması təmin olunacaq.

# 2 Fevral Gənclər Günüdür



## Xalqımızın qürur və qəhrəmanlıq simvolu

**"Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm kı, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir... ...Ona görə də biz yaşlı nəslin nümayəndələri arxayınıq ki, siz, əziz gənclər, müstəqil Azərbaycan Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsınız. Mən buna əminəm!"**

1996-cı fevralın 2-də keçirilmiş Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyevin böyük inam və əminliklə dilə gətirdiyi kimi, vətənpərvər gəncliyimiz qüdrətli, dünyanın hər yerindən görünən Azərbaycanın quruculuğunda böyük səy və əzmlə iştirak ediblər.

Ulu Öndərin vaxtilə müəyyənləşdirdiyi gənclər siyasətini uğurla davam və inkişaf etdirən Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə yetişən vətənpərvər gənclik sayəsində Azərbaycan ərazi bütövlüyünü, suverenliyini tam təmin edib. Qəhrəman gəncliyimizin xalq, vətən təəssübü bizə bütöv Azərbaycan bəxş edib.

### Əsası Ulu Öndər tərəfindən qoyulan uğurlu siyasət

Gənclər hər bir ölkənin gələcəyidir. Onların təhsilli, vətənpərvər və fəal olması dövlətin inkişafı üçün çox vacibdir. Azərbaycanda gənclər siyasətinin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin xüsusi rolu olub. Ümummilli Lider gənclərin inkişafına, onların dövlət həyatında fəal iştirakına və milli dəyərlər ruhunda tərbiyəsinə böyük önəm verib. Azərbaycan gənclərinin birinci forumunda Ulu Öndər Heydər Əliyevin vurğuladığı, "Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir" fikirləri də gənclər qarşısında mühüm tarixi vəzifələr müəyyənləşdirmiş, yeni nəslin həyat kredosuna çevrilmişdi.

Azərbaycanın ən çətin məqamında xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdaraq dövlət müstəqilliyimizi möhkəmləndirən Ulu Öndər Heydər Əliyev ilk günlərdən gənclərin problem və qayğıları ilə maraqlandı və onların aradan qaldırılması istiqamətində mühüm addımlar atdı. Ümummilli Liderin 1993-cü ilin sentyabrında Ali Sovetdə gənclərin nümayəndələrini qəbul edərək onları dinləməsi, 1994-cü ilin iyulunda gənclər və idman siyasətini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanını yaratması, bir qədər sonra bütün şəhər və rayonlarda bu nazirliyin yerli idarələrinin yaradılmasına sərəncam verməsi, hər il büdcədən gənclər siyasəti üçün ayrılan vəsaitin artırılması da bunun göstəricisi idi. 1996-cı il fevralın 2-də Ulu Öndərin iştirakı ilə Azərbaycan Gənclərinin ilk forumu keçirildi və bu forum respublikanın hər yerində gənclərlə aparılan işin canlanmasına birbaşa təkan verdi. Forumdan sonra gənc istedadların "Qızıl kitabı"nın təsis edilməsi, fevralın 2-nin təqvimə "Azərbaycan Gəncləri Günü"nün daxil edilməsi, 1997-ci ildə gənc yazıçılarla görüşlərin keçirilməsi, onlar üçün fərdi təqaüdlərin ayrılması və digər tədbirlər gənclərin təşkilatlanmaya olan meyillərinin artmasına, müasir gənclər hərəkatının formalaşmasına şərait yaratdı.

Gənclərin ilk forumunda Ulu Öndər Heydər Əliyev gənclərə diqqəti artırmağı mühüm vəzifə kimi qarşıya qoydu: "...Hesab edirəm ki, bizim vəzifəmiz, dövlət orqanlarının vəzifəsi, hakimiyyət orqanlarının vəzifəsi gənclərə diqqəti artırmaq, gənclər probleminin həll olunması ilə bundan sonra daha da yaxından məşğul olmaq və irəliyə sürülən təkliflərin həyata keçirilməsi üçün çalışmaq, lazımi tədbirlər görməkdən ibarətdir".

### Gənclərin yüksəlişi

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətini ardıcıllıqla davam etdirir, gənclərə xüsusi diqqət göstərir. Prezidentin gənclərin inkişafını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən etməsi onların təhsil alması, peşə sahibi olması, idman və mədəniyyət sahələrində fəal iştirak etməsi üçün geniş imkanlar açır. Ötən 22 il yarımlıq müddətdə Prezident İlham Əliyevin təşəbbüsü ilə gənclər üçün müxtəlif proqramlar, təqaüdlər və layihələr həyata keçirilib, gənclərin vətənpərvər ruhda tərbiyə olunması və ölkənin ictimai-siyasi həyatında aktiv iştirakı üçün münbit şərait yaradılıb. Həyata keçirilən bu siyasət nəticəsində Azərbaycan gəncləri daha savadlı, güclü və məsuliyyətli yetişir, ölkənin inkişafında mühüm rol oynayırlar.

2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" sərəncam imzalanması, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiqlənməsi, 2007-ci ilin ölkədə "Gənclər ili" elan edilməsi Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi diqqətin, dəstəyin, qayğının, xüsusilə də onlara böyük etimadının təzahürüdür. Həyata keçirilən dövlət proqramları bu istiqamətdə qarşıya qoyulan vəzifələrin uğurlu icrasında böyük rol oynayır. Gənclər təşkilatlarının və ayrı-ayrı gənclərin ictimai əhəmiyyət daşıyan təşəbbüslərini dəstəkləmək məqsədilə 29 dekabr 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, eləcə də 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olunub. Azərbaycan Respublikasında gənclər siyasəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Prezidentin 7 mart 2018-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Gənclər Fondu" publik hüquqi şəxs yaradılıb. Ölkə gənclərinin hərtərəfli inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

Azərbaycanda gənclərin sosial problemlərinin həlli daim diqqət mərkəzindədir. Həyata keçirilən bütün dövlət proqramlarında bununa bağlı vacib məqamlar öz əksini tapıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva gənclərə böyük diqqət və qayğı göstərir, gənclərin mədəniyyət, təhsil və sosial sahələrdə inkişafı üçün müxtəlif layihə və proqramlara dəstək verir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu gənclər üçün təhsilin inkişafı, mədəni tədbirlərin təşkili və sosial layihələrin həyata keçirilməsi istiqamətində mühüm işlər görür.

### Gənclərimizin qürur və qəhrəmanlıq salnaməsi

Göstərilən bütün bu ali diqqət və qayğı Azərbaycan gənclərinin qarşısında həm də böyük məsuliyyət qoyur. Bununla yanaşı, onların güclü və parlaq gələcək qurmaları üçün mühüm motivasiya olur və gənclərimiz onlara göstərilən yüksək etimadı doğrultmaq üçün Azərbaycanın inkişafı naminə bütün güclərini səfərbər edərək səylə çalışırlar.

2020-ci il Vətən müharibəsində Azərbaycan gəncliyi gücünü, iradəsini və vətənə bağlılığını bütün dünyaya nümayiş etdirdi. Gənc əsgər və zabitlərimiz silaha sarılaraq yalnız torpaq uğrunda deyil, həm də xalqın şərəfi və gələcəyi uğrunda döyüşdülər. Vətən uğrunda irəli atılan gənclərimizin hərəsi döyüş meydanında bir tarix yazdı. Lazım gəldikdə hətta ölümün gözünə dik baxaraq, "Vətən sağ olsun!" deyən oğullarımız hər gün ön cəbhədən arxa cəbhəyə qələbə müjdələri çatdırdılar. Qarabağ uğrunda qəhrəmanlıqla savaşan gənclərimiz təkcə güc nümayiş etdirmədilər, həm də milli ruhun daşıyıcısı oldular. Azərbaycan gənclərinin cəsarəti, birliyi və fədakarlığı sayəsində torpaqlarımız işğaldan azad olundu və böyük Zəfər qazandıq. Xalqımızın qürur, fəxarət, güvənc ünvanına çevrilən gənclərimizin 44 günlük savaşda sərgilədikləri misilsiz şücaət və hünərləri gələcək nəsillərə vətən sevgisinin ən ali dərsi kimi qaldı.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən Azərbaycan gəncliyi hər zaman Vətənin keşiyində durmağa hazır olduğunu nümayiş etdirdi və xalqımızı qalib xalq etdi.

"Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi", - deyə 2022-ci il fevralın 2-də Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda bir daha bu vacib məqamı vurğuladı.

Bəli, vaxtilə Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasəti bu gün də Azərbaycan gənclərinin uğurlu inkişafının əsasını təşkil edir. Ölkəmizdə həyata keçirilən gənclər siyasəti nəticəsində Azərbaycan gəncliyi savadlı, vətənpərvər, fəal və təşəbbüskar bir qüvvəyə çevrilib. Gənclərimiz ölkənin ictimai, siyasi və mədəni həyatında mühüm rol oynayır, Azərbaycanın gələcəyinin qurucuları kimi çıxış edirlər.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Zəfərin yadigarı

### Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Anar Əliyevin qızı: "Mənim üçün Vətən sevgisi atamın ömür yolunda, onun dəyərlərində yaşayır"

**Qarabağın bir-birini əvəz edən əsrarəngiz təbiət mənzərələrini Zəfər yolu ilə irəliləyən avtomobilin pəncərəsindən seyr edən gənc qız o an elə hiss edirdi ki, sanki atasının ruhu da onunla birlikdə Şuşaya gedir... Uc-bucaqsız, gül-çiçəkli çəmənlərə, zümrüd donlu meşələrə, qardan bəyaz çalmalı dağlara, kükrəyə-kükrəyə axan çaylara baxa-baxa düşünürdü ki, bu yerlərin hər daşına, qayasına, ağacına, otuna, gülünə, suyuna atasının həniri hopub və bu doğmalıqdan duyduğu qürur və qəhərqarışıq hisslərlə xəyalən atasının əlindən tutub xatirələr cığırı ilə uşaqlıq dünyasına üz tuturdu... Lap yaxından atasının, "Nigar, sən böyüyəndə artıq torpaqlarımız azad olacaq. İnşallah bir yerdə Şuşaya gedəcəyik, Qarabağımızın necə gözəl olduğunu sən də görəcəksən...", - deyən səsi gəlirdi qulağına...**

Təbəssüm qonan dodaqları sevinclə pıçıldayırdı: "Ruhun şad olsun, ata, sənin və qəhrəman Azərbaycan döyüşçülərinin sayəsində torpaqlarımız artıq azaddır. İllər əvvəl arzuladığın kimi, bu gün mən gənc Azərbaycan vətəndaşı olaraq Qarabağımızı, Şuşanı fəxarətlə ziyarət edirəm. Təkcə bir fərq var ki, sən yanımda yoxsan. Amma qürurun, şanlı adın, ruhun hər zaman mənimlədir. Sən hər zaman məni vətəninə bağlı, cəmiyyət üçün faydalı, müstəqil düşüncəli və güclü bir şəxsiyyət kimi görmək istəyirdin. İndi var gücümlə çalışıram ki, məni görmək istədiyin bu zirvəyə çatım, vətənimə, xalqıma layiq gənc olum".

### Gələcəyə inamla

Bəli, İkinci Qarabağ savaşında əldə edilən parlaq Qələbə Azərbaycan gəncliyinə yeni bir kimlik, qalib xalqın gəncliyi olmaq kimliyi qazandırıb.

Gənc tələbə gələcəkdə xaricdə hüquq üzrə magistr təhsili almaq arzusundadır. O, atasının hərbçi yolunu müqəddəs hesab etsə də, öz sahəsində - tarix və hüquq istiqamətində Vətəninə xidmət etmək istəyir: "Bu sahə uşaqlıqdan məni özünə cəlb edir. Bəlkə elə oxuduğum kitabların, baxdığım filmlərin əksəriyyətinin də bu sahə ilə bağlı olması bununla əlaqədardır. Məqsədim hüquqi və ictimai sahədə çalışaraq Azərbaycanın inkişafına töhfə vermək, ölkəmizin hüquqi dövlət quruculuğuna dəstək olmaqdır. Dərslərimlə yanaşı, ictimai fəaliyyətlə də fəal məşğul olmağa çalışıram. "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə müxtəlif xarici ölkələrdə, eləcə də Azərbaycanda düşərgələrdə, yarışlarda iştirak etmişəm. Ölkəmizdə könüllülük hərəkatı geniş vüsət alıb və uğurla davam edir. Planlarım arasında könüllülük fəaliyyəti ilə məşğul olmaq da var".



Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin qəhrəmanlığı Nigar Əliyeva üçün tükənməz motivasiya mənbəyidir: "Atamın adını daşımaq şərəf olmaqla yanaşı, böyük məsuliyyətdir. Bilirsiniz, şəhid övladı olmaq həm ağır, həm də qürurverici bir qismətdir. Təbii ki, ata itkisi insanın həyatında ağrı-acılı silinməz iz buraxır və bu ağrı ömrün boyu səninlə birlikdə qalır. Lakin eyni zamanda şəhid övladı olmağın verdiyi qürur hissi bu ağrını gücə çevirir. Çətin anlarda atamın adına layiq olmağı düşünməyim mənə güc verir, arzularımdan vaz keçməmək üçün motivasiya yaradır".



Bu gün Azərbaycan gəncliyi gələcəyin qurucusu olmaqla yanaşı, qəhrəmanlıq və vətənpərvərlik ruhunun daşıyıcısıdır. Bu gənclik tarixi Qarabağ Zəfərinin, şəhidlərin qanı ilə yazılmış müstəqilliyin, azadlığın məsuliyyətini də çiyinlərində daşıyır və Azərbaycanın sabahlarının parlaq olması üçün elmə, biliyə, milli şüura dayanan fəaliyyət həyata keçirir.

Bu gənclərin arasında şəhidlərin yadigarları, qəhrəman övladları ayrıca yer tutur. Onların taleyi təkcə şəxsi həyat hekayəsi deyil, bütöv bir xalqın yaddaşı, qüruru və gələcəyə inamıdır. Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Anar Əliyevin qızı Nigar Əliyeva da bu nəsli təmsil edən vətənpərvər və işıqlı gənclərdəndir.

18 yaşlı Nigarın həyatı, arzuları və düşüncələri bir tərəfdən ata xatirəsi ilə, digər tərəfdən isə gələcəyə inam və ümidlə yoğrulub. 2 Fevral Gənclər Günü ərəfəsində şəhid qəhrəmanın övladı ilə söhbət edərək, həm gənclərin düşüncələrini, həm də şəhid ailəsinin övladının vətən və həyat haqqında baxışlarını öyrənməyə çalışdıq.

Bakı Dövlət Universitetinin Tarix fakültəsinin birinci kursunda oxuyan Nigar Əliyeva söylədi ki, Gənclər Günü onun üçün sadəcə təqvim bayramı deyil. O, bu günü gənclərin ideyalarının, potensialının və gələcəyə inamının cəmiyyət tərəfindən dəyərləndirildiyi xüsusi bir gün kimi görür: "Düşünürəm ki, bugünkü Azərbaycan gənclərinin əsas vəzifəsi savadlı olmaq, vətəni sevmək, milli-mənəvi dəyərləri qorumaq və ölkənin inkişafına töhfə verməkdir. Gənclər yalnız tariximizi bilməməli, həm də gələcəyimizi quracaq gücə çevrilməlidirlər. Gənclər Günü həmçinin gənclərin diqqət mərkəzində olduğunu, onların motivasiyasının və gələcəyə inamının önəmli olduğunu göstərir. Arzum odur ki, hər bir gənc məqsədlərinə çatmaq üçün əlindən gələni etsin. Çünki savadlı və vətənpərvər gənclik Azərbaycanın gələcək uğurlarının əsas təminatıdır".

### Vətən sevgisi

"Gənclər vətəni sevməli, onun dəyərlərini qorumalı və bu sevgini gələcək nəsillərə ötürməlidirlər. Vətən sevgisi yalnız sözlə deyil, əməl, məsuliyyət və xidmətlə ölçülür", söyləyən Nigar Əliyevanın düşüncəsində vətən sevgisi ata obrazı ilə birləşir. Buna görə də deyir: "Vətən sevgisini mən atamın duruşunda, sözündə və həyat yolunda görmüşəm. Mənim üçün Vətən sevgisi atamın ömür yolunda, onun dəyərlərində yaşayır".

O, atası, Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevi yalnız ata kimi deyil, vətən sevgisinin canlı simvolu kimi xatırlayır: "Atamla bağlı xatirələrim çoxdur. Qardaşımla və mənimlə birlikdə oyunlar oynaması, əlləri ilə bizi yedizdirməsi, işi ilə əlaqədar vaxtının az olmasına, yorğunluğuna baxmayaraq, dərslərimizlə mütəmadi maraqlanması, bizi gəzməyə aparması...

Atam mənim də, qardaşım Əlinin də dünyagörüşlü, savadlı və müasir düşüncəli yetişməyimizi istəyirdi. Yadımdadır, o həmişə deyirdi ki, Nigar, çalış əcnəbi dilləri mükəmməl öyrən ki, xarici ölkələrə səfərə gedəndə çətinlik çəkməyək. İndi atamın bu arzusunu anamla, qardaşımla birgə həyata keçiririk.

Çalışıram atamın vaxtilə mənə verdiyi tövsiyələri bir-bir yerinə yetirim. O mənim tələbə olduğum günü də çox görmək istəyirdi... Buna görə də tələbə adını qazananda məndə sevinc hissi ilə bərabər kədər də var idi..."

Nigar deyir ki, atası Anar Əliyevin ona verdiyi ən böyük həyat dərsi dürüstlük, məsuliyyət və şəxsiyyət kimi formalaşmaq olub: "Atam hər zaman insanın yalnız peşəkar deyil, mənəvi cəhətdən də güclü olmasının vacibliyini deyirdi. O bizi vətəninə bağlı, cəmiyyət üçün faydalı, müstəqil düşüncəli və güclü bir şəxsiyyət kimi yetişdirirdi".

### "Qarabağın çiçəklənməsi hər bir azərbaycanlı üçün qürur mənbəyidir"

Qarabağa - Şuşaya, Xankəndiyə səfərlər Nigar Əliyevanın yaddaşında xüsusi emosional iz buraxıb. İlk dəfə 2022-ci ildə Zəfər yolu ilə Şuşaya getmək onun üçün həm hüznlü, həm də fəxredici olub. Sıralarında Vətən Müharibəsi Qəhrəmanı, şəhid Anar Əliyevin də olduğu igid Azərbaycan oğullarının açdığı Zəfər yolu ilə irəliləmək gənc qızın ata xatirəsini daha dərindən hiss etməsinə, hüznə boğulmasına səbəb olub. "Ancaq Qarabağın gözəlliyini, burada dövlətimizin başlatdığı genişmiqyaslı quruculuğu görəndə sanki daxili bir rahatlıq duydum. Ötən il yenidən Şuşa və Xankəndiyə səfər edəndə isə qısa müddətdə bu torpaqlarda baş verən böyük dəyişikliklərin, quruculuq və bərpa işlərinin şahidi oldum. İndi burada həyat qaynayırdı, yurdlarına geri dönən insanlar öz evlərində bizi salamlayırdılar... Bütün bunlar xoşbəxtliyin özü deməkdir. Qarabağın gündən-günə çiçəklənməsi hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Bu qüruru və sevinci əbədi etmək isə biz gənclərin üzərinə düşən böyük məsuliyyətdir. Hər birimiz öz sahəmizdə peşəkar kadr kimi yetişərək ölkəmizin inkişafına töhfə verməliyik", - deyir Nigar.

Bu gün bütöv Azərbaycanın səmasında dalğalanan üçrəngli, ay-ulduzlu bayraq təkcə dövlət rəmzi deyil, həm də minlərlə şəhidimizin canı bahasına qorunan müstəqilliyin, azadlığın və gələcəyə inamın rəmzidir. 44 günlük Vətən müharibəsində tarix yazan qəhrəmanlarımızın ən böyük mirası isə həm işğaldan azad edilmiş torpaqlar, həm də onların yadigar qoyduqları yeni nəsildir. Şəhid övladları, vətənpərvər gənclər, müstəqil Azərbaycanın sabahını quracaq güclü və məsuliyyətli vətəndaşlardır.

Bu nəsli təmsil edən Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Anar Əliyevin qızı Nigar Əliyevanın düşüncələri, arzuları və həyat yolu ümumilikdə Azərbaycan gəncliyinin ruhunu, məsuliyyətini və vətən sevgisini əks etdirir.

2 Fevral Gənclər Günü münasibətilə bütün Azərbaycan gənclərini ürəkdən təbrik edir, onlara güclü iradə, böyük uğurlar və parlaq gələcək arzulayırıq. Çünki gənclərimizin hər bir nailiyyəti Azərbaycanın gələcəyinə işıq saçır.

***Yasəmən QƏNAƏTQIZI, "Azərbaycan"***

# İcbari tibbi sığortanın xidmətlər zərfi genişləndiriləcək

**Azərbaycanın səhiyyə sistemində aparılan islahatlar dövlətin sosialyönümlü inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Xüsusilə, icbari tibbi sığortanın tətbiqi və bu mexanizmin mərhələli şəkildə inkişaf etdirilməsi əhalinin tibbi xidmətlərə çıxış imkanlarını artırmaqla yanaşı, səhiyyənin idarə olunmasında yeni institusional yanaşmalar formalaşdırır. Bu mənada icbari tibbi sığortanın Xidmətlər Zərfinin genişləndirilməsi səhiyyə sisteminin mahiyyət etibarilə daha inklüziv, davamlı və sosial ədalətə əsaslanan modelə keçidinin göstəricisidir.**






Mövzu ilə bağlı Milli Məclisin deputatı, parlamentin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, qarşıdakı illərdə səhiyyə siyasətinin əsas prioritetləri tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, yüksəktexnologiyalı müalicələrin sığorta çərçivəsində təmin olunması və vətəndaşların maliyyə risklərinin minimuma endirilməsi olacaq. 2026-cı ildən etibarən Xidmətlər Zərfinə travmatologiya, invaziv kardiologiya, neyrocərrahiyyə kimi mürəkkəb sahələr üzrə xidmətlərin əlavə edilməsi, eləcə də ambulator şəraitdə reseptlə verilən dərmanların, yəni ilkin mərhələdə hipertenziya dərmanlarının sığorta hesabına qarşılanması nəzərdə tutulur.

Bu genişlənmə səhiyyə xidmətlərinin məzmun baxımından zənginləşdirilməsinə xidmət edir. Xüsusilə, invaziv kardiologiya və neyrocərrahiyyə kimi sahələrin sığorta çərçivəsinə daxil olması kəskin və həyati təhlükəli xəstəliklər zamanı vaxtında və keyfiyyətli tibbi müdaxiləni mümkün edir. Bu isə fərdi sağlamlıq göstəricilərinin yaxşılaşmasına, ölüm və əlillik hallarının azalmasına, səhiyyə sisteminin ümumi effektivliyinin yüksəlməsinə gətirib çıxarır. Bütün bu addımlar səhiyyənin artıq "müalicəedici" modeldən "nəticəyönümlü" modelə doğru transformasiyasını göstərir.

Xidmətlər Zərfinin genişləndirilməsinin ən mühüm aspektlərindən biri də maliyyə yükünün əhali üzərindən götürülməsidir.

Müşfiq Məmmədli vurğulayıb ki, mürəkkəb əməliyyatların və uzunmüddətli müalicələrin icbari tibbi sığorta hesabına qarşılanması vətəndaşların öz cib xərclərini azaldır və tibbi səbəblərdən yaranan sosial-iqtisadi riskləri minimuma endirir. Bu, səhiyyə xidmətlərindən istifadənin artmasına və müalicənin gecikdirilməsi hallarının azalmasına şərait yaradır ki, nəticədə sistemin ümumi keyfiyyəti yüksəlir.

Xüsusi diqqətçəkən məsələlərdən biri ambulator dərman təminatının sığorta mexanizminə daxil edilməsidir. Deputatın qeyd etdiyi kimi, ilkin mərhələdə hipertenziya dərmanlarının qarşılanması xroniki xəstəliklərin idarə olunmasında mühüm dönüş nöqtəsi ola bilər. Yüksək qan təzyiqi kimi geniş yayılmış xroniki xəstəliklərdə dərmanlara davamlı çıxışın təmin olunması insult, infarkt və digər ağır fəsadların qarşısının alınmasında əsas amillərdən biridir. Bu addım səhiyyə siyasətində profilaktik yanaşmanın gücləndirildiyini və dövlətin uzunmüddətli sağlamlıq nəticələrinə fokuslandığını açıq şəkildə göstərir.

Sosial ədalət baxımından, xüsusilə, əhəmiyyətli olan digər məqam koxlear implantasiya və oynaqdaxili endoprotez əməliyyatları üzrə illik limitlərin ləğv edilməsidir. M.Məmmədli bildirib ki, bu tip yüksək texnoloji və bahalı tibbi xidmətlərin məhdudiyyətsiz şəkildə sığorta çərçivəsində təmin olunması sosial statusundan asılı olmayaraq, vətəndaşlar üçün bərabər imkanlar yaradır. Eşitmə məhdudiyyəti olan uşaqlar üçün koxlear implantasiya tibbi müdaxilə olmaqla yanaşı, onların təhsil, sosial inteqrasiya və gələcək həyat keyfiyyətinə birbaşa təsir edən mühüm sosial amildir. Bu mənada sözügedən qərarlar səhiyyə ilə sosial siyasətin kəsişməsində dayanan strateji addımlar kimi dəyərləndirilməlidir.

İlkin səhiyyə xidmətlərinin optimallaşdırılması və ailə həkimliyi modelinin gücləndirilməsi də mühüm məsələlərdən biridir. Deputat qeyd edib ki, regionlarda ailə həkimlərinin rolunun artırılması erkən diaqnostika imkanlarını genişləndirir, stasionar müalicəyə olan ehtiyacı azaldır və vətəndaşların böyük şəhərlərə üz tutmadan yerli səviyyədə tibbi yardım almalarını təmin edir. Bu, regionlararası səhiyyə bərabərsizliyinin aradan qaldırılmasında və resurslardan daha səmərəli istifadədə əsas mexanizmlərdən biri olacaq.

Həmçinin icbari tibbi sığorta sistemində özəl tibb müəssisələrinin rolunun artması da xidmət keyfiyyətinə müsbət təsir göstərən amillərdəndir. Müşfiq Məmmədli bununla bağlı diqqətə çatdırıb ki, dövlət və özəl sektorun paralel fəaliyyəti rəqabəti artırır, xidmət seçimini genişləndirir və gözləmə müddətlərini azaldır. Xüsusilə, regionlarda özəl müəssisələrin İTS ilə müqaviləyə cəlb olunması tibbi xidmətlərin daha balanslı coğrafi bölgüsünə şərait yaradır.

Gələcəyə yönəlik strateji dəyişikliklərdən biri də pediatrik onkoloji xidmətlərin icbari tibbi sığorta çərçivəsinə daxil edilməsi ilə bağlıdır. Deputat bildirib ki, bu istiqamətdə qanunvericilik təşəbbüsləri hazırlanır və 2027-ci ildən tətbiqi nəzərdə tutulur. Uşaq onkologiyasının sığorta təminatına alınması dövlət siyasətində uşaq sağlamlığını prioritet elan etdiyini göstərir. Uzunmüddətli və yüksək maliyyəli müalicələrin sığorta hesabına qarşılanması ailələrin üzərindəki ağır maliyyə yükünü azaldır və müalicənin davamlılığını təmin edir.

İcbari tibbi sığortanın Xidmətlər Zərfinin genişləndirilməsi Azərbaycan səhiyyə sistemində keyfiyyətin yüksəldilməsi, əlçatanlığın artırılması və sosial ədalətin möhkəmləndirilməsi istiqamətində fundamental əhəmiyyətə malikdir. Bütün bu islahatlar bugünkü sağlamlıq problemlərinin həllinə, uzunmüddətli perspektivdə daha sağlam, daha güvənli və sosial baxımdan daha ədalətli cəmiyyətin formalaşmasına xidmət edir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Gənclər ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatında fəal iştirak edirlər

**Müasir dövrdə dövlətlərin dayanıqlı inkişafı, milli təhlükəsizliyinin qorunması və qlobal rəqabət mühitində uğurla mövqe tutması bilavasitə gənclərin intellektual, mənəvi və vətənpərvərlik potensialından asılıdır. Bu baxımdan, Azərbaycan Respublikasında gənclər siyasəti dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi formalaşmış və Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni, müasir və sistemli mərhələyə qədəm qoymuşdur.**



Bu siyasətin mərkəzində milli maraqlara sadiq, dövlətinə bağlı, təşəbbüskar və fəal gənclik dayanır. Azərbaycan gəncliyi Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil, praqmatik və milli maraqlara əsaslanan siyasəti ardıcıl şəkildə dəstəkləyir, ölkənin sosial-iqtisadi, siyasi və mədəni inkişafında fəal iştirak edir. Gənclərin dövlət başçısına göstərdiyi bu dəstək təsadüfi deyil, uzunmüddətli və məqsədyönlü dövlət siyasətinin məntiqi nəticəsidir.

Qeyd edək ki, uğurlu gənclər siyasətinin nəticəsində bu sahədə normativ-hüquqi baza təkmilləşdirilmiş və ardıcıl dövlət proqramı icra olunmuşdur. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu, gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların məşğulluğunun təmin edilməsi və ictimai fəallığının artırılması istiqamətində atılan addımlar bu siyasətin əsas sütunlarını təşkil edir. Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar gənclərin dövlət idarəçiliyində, ictimai həyatda və qərarların qəbulunda fəal iştirakına geniş imkanlar açmışdır. Dövlət başçısı gəncləri yalnız gələcəyin deyil, eyni zamanda bu günün əsas aparıcı qüvvəsi kimi qiymətləndirərək, onlara etimad göstərmişdir.

Azərbaycan gəncliyi Prezident İlham Əliyevin daxili və xarici siyasət kursunu dəstəkləməklə yanaşı, bu siyasətin mahiyyətini dərindən dərk edir və ictimai müstəvidə fəal şəkildə təbliğ edir. Gənclər ölkədə sabitliyin, təhlükəsizliyin və inkişafın alternativsiz olduğunu anlayaraq, güclü liderlik institutunun əhəmiyyətini xüsusi vurğulayırlar. Prezident İlham Əliyevin beynəlxalq münasibətlər sistemində Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə etməsi, müstəqil və balanslaşdırılmış xarici siyasət yürütməsi gənclərdə yüksək rəğbət doğurur. Onlar Azərbaycanın beynəlxalq nüfuzunun artmasını, regional və qlobal təşəbbüslərdə fəal iştirakını dövlət başçısının uzaqgörən siyasətinin nəticəsi kimi qiymətləndirirlər.

2020-ci ildə baş vermiş Vətən müharibəsi Azərbaycan gəncliyinin Prezident İlham Əliyevin ətrafında necə sıx birləşdiyini əyani şəkildə nümayiş etdirdi. Gənclər həm ön cəbhədə, həm də arxa cəbhədə misilsiz fədakarlıq göstərərək, Ali Baş Komandanın çağırışlarını böyük ruh yüksəkliyi ilə qarşıladılar. Gənclər Prezidentin siyasi iradəsinə, qətiyyətinə və ədalətli mövqeyinə tam inam nümayiş etdirdilər. Qələbədən sonrakı mərhələdə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində gənclərin fəal iştirakı Prezident İlham Əliyevin müəyyən etdiyi milli birlik strategiyasının uğurla reallaşdığını təsdiqləyir. Könüllülük hərəkatı, sosial təşəbbüslər və ictimai fəallıq gənclərin dövlət başçısına mənəvi dəstəyinin real təzahürüdür. Prezident İlham Əliyevin siyasətində təhsil və insan kapitalının inkişafı xüsusi yer tutur. Gənclərin bilik və bacarıqlarının artırılması, müasir texnologiyalara yiyələnməsi, beynəlxalq təhsil məkanına inteqrasiyası dövlət siyasətinin əsas hədəflərindəndir. Yeni məktəblərin, ali təhsil müəssisələrinin yaradılması, təhsil infrastrukturunun yenilənməsi və xaricdə təhsil proqramları gənclərin intellektual potensialının gücləndirilməsinə xidmət edir.

İnnovasiya, rəqəmsallaşma və startap ekosisteminin inkişafı gənclərin iqtisadi fəallığını artırmaqla yanaşı, onların ölkənin strateji inkişaf proseslərində rolunu möhkəmləndirir. Gənclər bu siyasəti Prezident İlham Əliyevin gələcəyə hesablanmış və davamlı inkişaf strategiyası kimi qiymətləndirir və dəstəkləyirlər. Prezident İlham Əliyevin gənclərlə bağlı siyasətində milli-mənəvi dəyərlərin qorunması və təbliği mühüm yer tutur. Gənclərin tarixini, mədəniyyətini, dilini və dövlətçilik ənənələrini dərindən bilməsi dövlət başçısı tərəfindən daim vurğulanır. Bu çağırışlar gənclərin milli kimliyinin möhkəmlənməsinə, vətəndaşlıq məsuliyyətinin artmasına xidmət edir.



Gənclər Prezidentin müəyyən etdiyi ideoloji xəttə uyğun olaraq, milli maraqları qorumağı, dövlətə sədaqəti və ictimai məsuliyyəti öz fəaliyyətlərinin əsas prinsipi kimi qəbul edirlər. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevi dəstəkləyən gənclər ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayan, dövlətçilik düşüncəsinə malik, milli maraqlara sadiq və fəal bir nəsli təmsil edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və uzaqgörən siyasət gənclərin dövlətə və liderə olan inamını daha da gücləndirmişdir. Azərbaycan gəncliyi dövlət başçısının ətrafında sıx birləşərək, müstəqil, güclü və suveren ölkəmizin inkişafına bundan sonra da öz töhfəsini verəcəkdir. Bu həmrəylik və qarşılıqlı etimad ölkənin sabitliyinin, davamlı inkişafının və parlaq gələcəyinin əsas təminatıdır.

*Şahin SEYİDZADƏ,*
*Milli Məclisin deputatı*

# Revanşistlər TRIPP-a qarşı

## Sülh və əməkdaşlıq onların xəstə təfəkkürünə ziddir

**Ermənistanda köhnə rejimin qalıqları və revanşist dairələr regionda sabitliyə xidmət edən addımları qaralamaq üçün hər cür oyuna baş vururlar. Xüsusən, formalaşan yeni geosiyasi və iqtisadi reallıqları həzm edə bilməyən müxalif qruplaşmaların sülh quruculuğu prosesinə müqaviməti müxtəlif formalarda təzahür edir. Bölgənin simasını dəyişdirəcək TRIPP (Zəngəzur dəhlizi) layihəsinə qarşı yönələn kəskin bəyanatlar, dəhliz ətrafındakı manipulyasiyalar keçmişin qanlı mirasını daşıyan siyasilərin hələ də sülh və əməkdaşlıqda maraqlı olmadığını nümayiş etdirir. Revanşist qüvvələr iqtisadi inkişafı "milli təhlükə" kimi qələmə verərək, cəmiyyəti yenidən qeyri-müəyyənliyə sürükləməyə çalışırlar. Çünki onlar iqtisadi tərəqqini deyil, gərginliyi və qarşıdurmanı öz siyasi varlıqlarının yeganə yolu hesab edirlər. Bu ritorikanın önündə gedənlər isə vaxtilə bölgəni qan gölünə çevirən, on minlərlə insanın taleyini məhv edən qatı cinayətkarlardır.**

Ermənistanın keçmiş prezidenti, müharibə canisi Robert Koçaryanın növbəti dəfə TRIPP layihəsini hədəfə qoymaqla daşnak ritorikasını sərgiləməsi də bu xəstə təfəkkürün göstəricisidir. TRIPP layihəsini ölkəsi üçün "ən böyük təhdid" adlandıran sabiq rəhbər iddia edib ki, guya sözügedən layihə Ermənistanın mənfəətlərinə ziddir və əsasən Azərbaycanla Türkiyənin xeyrinədir. Onun qənaətincə, bu prosesdə rəsmi İrəvanın rolu məhduddur və həlledici addımlar Vaşinqtonun diktəsi ilə atılır. Koçaryanın fikrincə, ABŞ-nin regionda faktiki maliyyə maraqları mövcud deyil, onların yeganə hədəfi İranla olan sərhəd xəttində nüfuzunu artırmaqdır. O, bu təşəbbüsün Ermənistanı qlobal güclərin qarşıdurma meydanına çevirdiyini, ölkənin maraqlarının nəzərə alınmadığını, İrəvanın tərəf kimi çıxış etmədiyini irəli sürüb.

Koçaryanın əsassız ittihamlarına ilk sərt cavab Ermənistan Baş naziri Nikol Paşinyandan gəlib. Paşinyan Koçaryanın geosiyasət anlayışının artıq aktual olmadığını bildirib və deyib ki, "Tramp marşrutu" genişmiqyaslı investisiya proqramıdır: "Bu layihə Ermənistan üçün yüz milyonlarla dollar həcmində sərmayənin cəlb olunmasını nəzərdə tutur". Baş nazir vurğulayıb ki, proqram eyni zamanda ölkə üçün mühüm təhlükəsizlik zəmanətləri də yaradacaq. Paşinyan ABŞ-nin layihədə iqtisadi maraqlarının olmadığına dair səsləndirilən absurd fikirlərə də münasibət bildirib. O qeyd edib ki, tamamilə iqtisadi məntiq üzərində qurulan ABŞ kimi bir dövlətin iqtisadi maraqlardan kənarda qalması mümkün deyil. Hökumətin digər üzvləri də Koçaryanın ittihamlarını pisləyiblər. Ermənistan parlamentindəki hakim "Vətəndaş müqaviləsi" fraksiyasının rəhbəri Hayk Konçoryanın cavabı daha maraqlı səslənir: "Müxalifətin strategiyası belədir: Ermənistan üçün nə qədər pisdirsə, onlar üçün yaxşıdır. İndi yaxşı proseslər gedir, buna görə kədərli




və bədbəxtdirlər. İnsanlar həyatı, müxalifət isə ölümü seçir, onlar müharibə istəyirlər, amma zarıldamaları reallığı dəyişməyəcək".

TRIPP kimi irimiqyaslı iqtisadi təşəbbüslərə "təhlükə" prizmasından yanaşmaq, ölkənin blokadadan çıxması və qonşularla normal iqtisadi münasibətlərin qurulması bu cür xəstə tiplərin ən böyük qorxusudur. Ermənistanın layihədə "yarım tərəf" olduğunu iddia edənlər onillər boyu kimdənsə qul kimi asılı olduqlarını unudurlar. Azərbaycan və Türkiyənin iştirakı ilə reallaşan layihələr regionda yeni iqtisadi arxitektura formalaşdırır ki, burada iştirak etməmək Ermənistanın özünü zəiflədir. Koçaryanın ABŞ-nin maraqlarını yalnız İranla sərhədə nəzarət kimi təqdim etməsi diqqəti iqtisadi faydadan yayındırıb təhlükəsizlik qayğılarına yönəltmək məqsədi daşıyır. Bu, cəmiyyətdə "böyük güclərin oyuncağı oluruq" qorxusunu alovlandırmaq üçün istifadə edilən klassik metoddur. Bu cür ritorika Ermənistanın regional inteqrasiya şanslarını baltalamağa və ölkəni keçmişin bataqlığında saxlamağa xidmət edir.

Koçaryanın "əgər TRIPP layihəsinə Çin qoşularsa, onu alqışlayaram" deyir. Bəllidir ki, TRIPP Cənubi Qafqazı qlobal ticarət şəbəkələrinə birləşdirərək Orta Asiya ilə Qərbi Avropanı birləşdirən alternativ bir marşrut yaratmağı hədəfləyir. Nəticədə Avrasiya boyunca fasiləsiz bir ticarət bağlantısı formalaşır. Çin və Orta Asiyadan Avropaya yüklər TRIPP marşrutu ilə cəmi 12-14 gün ərzində Avropaya çata bilər ki, bu da ənənəvi Rusiya üzərindən daşınma müddətinin təxminən yarısı qədərdir. TRIPP ABŞ-nin təşəbbüsü olsa da, Pekinin "Bir kəmər, bir yol" proqramının Orta dəhliz qolunu gücləndirən əlverişli bir vasitə rolunu oynayır. Bu da Çin mallarının Avropaya çatdırılmasında alternativ və sürətli bir kanal təqdim edərək Çin şirkətlərinin logistika risklərini azaltmasına kömək edir. Yəni TRIPP Avropa, Çin, Türkiyə və Orta Asiya üçün ticarət axınlarının şaxələnməsi və regional iqtisadi inteqrasiyanın dərinləşməsi baxımından qarşılıqlı faydalar yaradır.

Revanşist Koçaryanın manipulyasiyasının əksinə, TRIPP Ermənistan üçün də olduqca əhəmiyyətli və faydalıdır. Layihə, ilk növbədə, Ermənistanın da regional oyunçulardan birinə çevrilməsi deməkdir. İrəvan hazırda regiondakı böyük enerji və nəqliyyat layihələrindən kənarda qalıb. Bu marşrut Ermənistana hər il milyonlarla dollar birbaşa tranzit gəliri gətirəcək. Layihə çərçivəsində ABŞ və digər beynəlxalq donorlar Ermənistanın infrastrukturuna milyardlarla dollar investisiya qoymağı planlaşdırır. Koçaryan "yarım tərəf" iddiasını irəli sürsə də, Ermənistan öz ərazisindən keçən marşrut üzərində qanunverici, tənzimləyici və məhkəmə yurisdiksiyasını qoruyub saxlayır. TRIPP Ermənistanın Türkiyə ilə sərhədlərinin açılması və Azərbaycanla birbaşa ticarət əlaqələrinin qurulması üçün də "qapı" rolunu oynayır. Bu, erməni məhsulları üçün yeni və yaxın bazarlar deməkdir.

Koçaryan və onun kimilərinin əsas qorxusu Ermənistanın zəifləməsi, asıllığı yox, iqtisadi cəhətdən güclənən bir ölkənin revanşist və münaqişəyə meyilli "liderlərə" ehtiyac duymayacağı reallığıdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

I Türkoloji Qurultay - 100

# Türk xalqlarının tarixinin parlaq səhifəsi

**I Türkoloji Qurultay türk xalqlarının tarixində ən əlamətdar hadisələrdən birinə çevrildi. 1926-cı il fevralın 26-dan martın 6-dək Bakı şəhərindəki İsmailiyyə Sarayında (hazırda AMEA Rəyasət Heyətinin binası) keçirilən I Türkoloji Qurultayda bir sıra mühüm və əhəmiyyətli qərarlar qəbul edildi. Qurultay türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı aktual problemlərin həllində mühüm rol oynadı, mədəni inkişafında yeni bir mərhələyə istiqamət verdi.**



Qurultayın çağırılması məsələsi Azərbaycan SSR hökuməti tərəfindən Sovet Sosialist Respublikalar İttifaqı (SSRİ) rəhbərliyinə təqdim edilmişdi. Bir müddət sonra latın əlifbasına keçilməsi məsələsinin həlli zərurəti I Azərbaycan Yerli Diyarşünaslıq Qurultayında və SSRİ Elmlər Akademiyasında və Ümumittifaq Şərqşünaslıq Birliyində irəli sürüldü. SSRİ Xalq Komissarları Şurası tərəfindən Ümumittifaq Türkoloji Qurultayının çağırılması barədə qərar isə 1925-ci ilin avqustunda qəbul olundu.

Qurultayın çağırılmasına hazırlıq üzrə təşkilat komissiyası yaradıldı. Təşkilat komissiyasının tərkibində Səməd ağa Ağamalıoğlu (sədr), M. Pavloviç, Həbib Cəbiyev, Vasili Bartold, Aleksandr Samoyloviç, Cəlaləddin Qorxmazov, Q. Broydo, Tyuryakulov, Zifeld, Fitred, Bəkir Çobanzadə, Aşmarin, Odabaş, Novşirvano, Əhməd Baytursunov, Yusifzadə yer aldılar.

Zəruri məsələlərdən birini - Ümumittifaq Türkoloji Qurultaya hazırlıq məqsədilə həyata keçirilən bütün işləri işıqlandırmaq məsələsini təşkilat komissiyası üçün "Xəbərlər" nəşri ilə həll etdi.

## Qurultayın ilk günü...

I Türkoloji Qurultay məşhur türkoloqlar İsmayıl bəy Qaspıralı və V.V.Radlovun şərəfinə keçirilirdi.

1926-cı il fevralın 26-sı I Türkoloji Qurultayın ilk günü, ilk təntənəsi oldu. 131 nəfər nümayəndənin iştirak etdiyi qurultayın sədri Səməd ağa Ağamalıoğlu I Türkoloji Qurultayın ilk iclasını açıq elan etdi: "Türkoloji qurultayın əhəmiyyətini bir neçə sözlə ifadə etmək kifayət qədər çətindir. Lakin şübhəsiz bu qurultay qurtuluş səciyyəli inqilabımızın üzə çıxartdığı bir çox praktiki məsələni elmi cəhətdən işıqlandırmağa imkan verərək ölkənin mədəni həyatında dərin iz buraxacaq. Maddi və mənəvi mədəniyyətin inkişafı ilə yazının təkamülü arasında əlaqə, dilin səs quruluşu ilə hərf tərkibinin əlaqəsinin elmi işıqlandırılması kimi məsələlərin müzakirəsi, əlifba sisteminin seçilməsi və əlifbanın özünün qurulması üçün gözəl zəmin yaradacaqdır. Təbiidir ki, bundan əlavə, türkoloji qurultayda aparılacaq elmi-fikir mübadiləsi bütövlükdə elmin inkişafı baxımından ciddi əhəmiyyət kəsb edir. Əlbəttə, müzakirə olunacaq bütün məsələlərə yanaşma sırf elmi xarakter daşıyacaq və bu müzakirələrin praktiki əhəmiyyəti elmi mülahizələrin praktika ilə necə uzlaşmasından asılıdır. Halbuki belə uzlaşmanın özü sırf mexaniki xarakter daşıya bilməz və qurultayın nəticələrinə, ictimaiyyətin subyektiv münasibətinə bağlıdır". Sədr diqqətə çatdırdı ki, türkoloji qurultay böyük Sovet İttifaqında yaşayan türk-tatar xalqlarının mədəni yüksəlişinə təkan verəcək: "Bundan əlavə, bu qurultay türkoloji ədəbiyyatın inkişafı və bütövlükdə türkologiyanın inkişafına zəmin yaradır. Mən bu qurultayın ümumdünya əhəmiyyətindən danışmağa ehtiyat edirəm. Lakin qurultaya dəvət olunmuş həm Sovet İttifaqından olan, həm də xarici qonaqların hamısının gəlməsi təbiidir ki, qurultay belə bir əhəmiyyət qazanacaqdır. Şübhəsiz, həm Azərbaycan türkləri, həm də digərləri bu qurultayı böyük maraqla qarşılayacaqlar. Çünki bu qurultayın nəticəsində ən azı və artıq qəbul olunmuş ədəbiyyat əsasında türk-tatar dillərində kifayət qədər geniş yazılı material toplusu formalaşacaqdır ki, bu da türk-tatar xalqlarının kasad ədəbiyyatına bir kisə qızıldan da dəyərli hədiyyədir".

I Beynəlxalq Türkoloji Qurultayın 22 nəfərdən ibarət Rəyasət Heyəti formalaşdırıldı.

Rəyasət Heyətinə bu şəxslər seçilmişdilər: Səməd ağa Ağamalıoğlu, Ruhulla Axundov, Həbib Cəbiyev, tanınmış şərqşünas-tarixçi alim akademik Vasili Bartold, akademik Sergey Oldenburq, Avropa alimlərinin nümayəndəsi professor F.F.Mençel, RSFSR Xalq Maarif Nazirliyindən Naqovitsin, professor Bəkir Çobanzadə, professor Aleksandr Samoyloviç, Qazaxıstandan Əhməd Baytursunov, Yakutiyadan İsidor Baraxov, Şərqşünaslıq Assosiasiyasından Borozdin və Pavloviç, Tatarıstandan Qəlimcan İbrahimov, Başqırdıstandan İdelquzin, Türkiyədən Mehmed Fuad Köprülü, Dağıstandan Cəlaləddin Qorxmazov, Özbəkistandan Şakircan Rahim, Qara-Qırğızıstandan Tunstanov, Türkmənistandan Berdiyev, Krımdan Osman Nuri Akçökraklı, Şimali Qafqazdan Əliyev Umar. Azərbaycan nümayəndə heyəti və digər respublikalar adından Əli bəy Hüseynzadə, Banq, Mustafa Quliyev, akademik Nikolay Marr, Anatoli Lunaçarski və Tomsen Qurultayın Rəyasət Heyətinin fəxri üzvü oldular.

Filologiya elmlər doktoru, professor Cəlal Qasımov tarixi faktlara əsaslanaraq 131 nəfərin dəvət aldığı və təxminən 600 nəfərin iştirak etdiyi I Türkoloji Qurultayda yalnız bir nəfər qadının - Ayna Sultanovanın (1895-1938) olduğunu yazıb: "O, Türkoloji Qurultaya katiblik edən 5 nəfərdən (Pənah Ələkbər oğlu Qasımov, Solomon Lazareviç Veltman, Muxammed Qeldiyev, Xabibulla Abduraşid oğlu Odabaş, Ayna Mahmud qızı Sultanova) biri idi".

Tədqiqatçı alim Cəlal Qasımov mandat komissiyasının məruzəsinə əsaslanaraq onu da qeyd edib ki, I Türkoloji Qurultaya dəvət olunmuş 131 nəfər nümayəndədən 93 nəfər türk, 38 nəfər isə qeyri-türk idi.

## I Türkoloji Qurultayın ünvanı - Şərqin giriş qapısı

SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri Qəzənfər Musabəyov təbrik nitqi ilə çıxış etdi. Qurultayın nəticələrinin Türkiyə, İran, Əfqanıstan xalqları və bir sıra illər ərzində aparılan işləri yekunlaşdırmaq və türkologiyanın sonrakı inkişafı üçün yollar müəyyənləşdirmək imkanı əldə edən elm aləmi üçün böyük əhəmiyyətə malik olacağını diqqətə çatdıran Qəzənfər Musabəyov belə tədbirin keçirilməsi üçün yerin də təsadüfən seçilmədiyini diqqətə çatdırdı: "Yoldaşlar, təsadüfi deyil ki, I Ümumittifaq Türkoloji Qurultay Azərbaycanın paytaxtı Bakı şəhərini özünə iş yeri seçib. Şərqin giriş qapısı olan coğrafi mövqeyinə və son 5 il ərzində zəhmətkeşlərin əldə etdikləri nəhəng mədəni və iqtisadi nailiyyətlərə görə Azərbaycan əziz qonaqları, türkologiyanın elmi nümayəndələrini qəbul etmək kimi yüksək şərəfə layiqdir".

SSRİ Mərkəzi İcraiyyə Komitəsi nəzdində Ümumittifaq Elm Assosiasiyasının sədri Mixail Pavloviç də çıxışında Türkoloji Qurultayın türk-tatar xalqları tarixində çox böyük hadisə olduğunu vurğuladı.

Qurultayın ikinci günü - fevralın 27-də akademik V.Bartoldun "Müasir vəziyyət və türk xalqları tarixinin araşdırılmasının ən yaxın vəzifələri", İ.Borozdinin "Tatar mədəniyyəti sahəsində ən yeni kəşflər", Ə.Qubaydullinin "Türk-tatar xalqlarında tarixi ədəbiyyatın inkişafı", S.Rudenkonun "Türk tayfalarının etnoqrafik tədqiqinin müasir vəziyyəti", Gyula Messaroşun "Anadolu və balkan türklərinin etnoqrafiyasının tədqiqinin müasir vəziyyəti və ən yaxın vəzifələri" və digər məruzələr böyük maraqla qarşılandı.

Qurultayda ümumilikdə 17 iclas keçirildi, bütövlükdə türk xalqlarının dili, tarixi, etnogenezisi, etnoqrafiyası, ədəbiyyat və mədəniyyətinə dair olduqca mühüm, əhəmiyyətli məsələlərin yer aldığı 38 məruzə dinlənildi. Məruzələr ciddi müzakirəyə çevrildi.

1926-cı il martın 6-da keçirilən qurultayın 17-ci iclasının sonunda mandat komissiyasının məruzəsi dinlənildi, qurultay ərzində müzakirəyə çıxarılmış məsələlərlə bağlı qətnamələr qəbul olundu.

I Türkoloji Qurultayda türk dillərinin əlifba məsələsi; imla-orfoqrafiya problemi; termin məsələsi; tədris-metodika məsələsi; qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri; türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi; ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri kimi yeddi böyük məsələ müzakirə edilərək müvafiq qərarlar qəbul edildi. Qəbul olunan qərarlar sırasında ortaq əlifba, ortaq ədəbi dil, ortaq terminologiya kimi məsələlər xüsusilə mühüm yer tuturdu.

I Türkoloji Qurultayın latın qrafikalı əlifbaya keçməklə bağlı qəbul etdiyi qətnamədə qeyd olunmuşdu: "Qurultay ərəb əlifbasının islah edilməsi və yeni türk əlifbasının (latın qrafikalı əlifbanın) ərəb əlifbasından texniki cəhətdən mükəmməl olmasını təsdiq edir, o cümlədən yeni əlifbanın ərəb əlifbası ilə müqayisədə mütərəqqi mahiyyətini və mədəni-tarixi nüfuzunu qəbul edir. Qurultay hesab edir ki, yeni əlifbanın həyata keçirilməsi hər bir türk-tatar respublikasının, vilayətinin və xalqının işidir".

Qurultay nümayəndələri özbək şairi Əlişir Nəvainin 500 illik yubileyində də iştirak etdilər. Qurultayın qərarına görə, II Türkoloji Qurultayın 1927-ci ildə Səmərqənd şəhərində keçirilməsi nəzərdə tutuldu. Ancaq bu qərar reallaşmadı. Araşdırıcılar səbəbini dövlətin siyasətinin dəyişməsi ilə əlaqələndirirlər…

## Qurultaydan sonra...

I Türkoloji Qurultay başa çatdıqdan sonra nəticələri, qəbul olunmuş qətnamələr diqqət mərkəzində oldu. Burada qaldırılan problemlərin həlli istiqamətində atılan əməli addımlar göz önündəydi. I Türkoloji Qurultayın tələblərindən irəli gələn məsələlərlə bağlı dövri mətbuatda Azərbaycan alimlərinin və türkoloqların məqalələri mütəmadi dərc olundu. 1927-ci il mayın 11-də SSRİ MİK-in verdiyi sərəncama əsasən, Yeni Türk Əlifbasının Mərkəzi Komitəsi yaradıldı. Komitənin sədri Səməd ağa Ağamalıoğlu seçildi.

Azərbaycanda 1923-cü ildən yeni türk əlifbası dövlət əlifbası kimi qəbul edilsə də, yalnız bu, I Türkoloji Qurultaydan sonra rəsmi şəkildə yekdilliklə latın qrafikalı əlifbaya keçid reallaşdı. Sovet hökuməti qurultayda qəbul edilən qərara əsaslanaraq, 1929-cu il yanvarın 1-dən ərəb əlifbasının istifadəsinə qadağa qoydu. Qurultayın qərarı ilə sovetlər birliyinə daxil olan digər türk respublikalarında da ərəb əlifbasının yerinə latın qrafikalı yazı ilə əvəzləndi. Hətta Rusiya Sovet Federativ Sosialist Respublikasının (RSFSR) tərkibində olan bəzi türk respublikalarında bu keçid daha erkən baş verdi. 1927-ci il iyulun 3-də Tatarıstan respublikasının partiya təşkilatı tərəfindən "Yeni əlifba"ya keçid rəsmi şəkildə elan olundu.

Azərbaycan SSR latın qrafikalı əlifbaya keçdikdən beş il sonra Türkiyə Cümhuriyyəti də həmin əlifbaya keçdi.

Qurultayın qərarı nəticəsində 1929-1939-cu illərdə bütün türk respublikalarında latın qrafikalı əlifbadan istifadə tətbiq edildi. Ancaq 1930-cu illərin axırlarında Sovet İttifaqı rəhbərliyi latın qrafikalı əlifbanın dəyişdirilməsi istiqamətində fəaliyyətə başladı. SSRİ-nin hökmü altında olan respublikalarda ümumi kiril əlifbasından istifadə qərarı 1939-cu ildə qəbul edildi. Latın əlifbasından kiril qrafikasına keçidin "zəhmətkeşlərin ümumi istəyi" kimi həyata keçirildiyi rəsmi açıqlamada qeyd olundu.

I Türkoloji Qurultayın bir çox iştirakçısı 1930-cu illərin sonlarında sovet hökumətinin repressiya siyasətinin qurbanı oldular. Onların əksəriyyəti pantürkçülük, millətçilik, əks-inqilabi fəaliyyətdə günahlandırıldılar. Ruhulla Axundov, Salman Mümtaz, Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Qəzənfər Musabəyov, Ayna Sultanova, Aleksandr Samoyloviç, Cəlaləddin Qorxmazov, Osman Akçökraklı, Əhməd Baytursunov, İsidor Baraxov və digər şəxsiyyətlər həbs olunaraq ən ağır işgəncələrə məruz qaldılar. Güllələndilər.

Ancaq ədalət təcəlli etdi. XX əsrin sonlarında Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra tariximizin parlaq səhifələrinə çevrilmiş I Türkoloji Qurultaya da dövlət səviyyəsində hüquqi qiymət verildi. Türk xalqlarının həyatında mühüm yer tutmuş bu hadisənin 80 illik yubileyinin keçirilməsi haqqında 2005-ci il noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərəncam imzaladı. Sərəncama uyğun olaraq 2006-cı ildə Bakıda I Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirildi.

On il sonra, 2016-cı il fevralın 18-də Prezident İlham Əliyev I Türkoloji Qurultayın 90 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə sərəncam imzaladı. Qurultayın 90 illik yubileyi də dövlət səviyyəsində qeyd olundu.

Artıq o mötəbər tarixi hadisədən bir əsr keçir. 2026-cı ilin fevralında I Türkoloji Qurultayın təşkilinin 100 ili tamam olur. Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli sərəncamında bildirildiyi kimi: "I Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində I Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür".

I Türkoloji Qurultay təkcə XX əsr türkoloji fikrinin zirvələrindən biri deyil. Eyni zamanda türk xalqlarının mədəni özünüdərkinin, elmi birliyinin və ortaq gələcək ideallarının təməl daşlarından biri kimi tarixə düşdü. Bu mötəbər qurultayda səsləndirilən ideyalar, qəbul olunan qərarlar və formalaşan elmi platforma zamanın sınağından çıxaraq bu gün də öz aktuallığını qoruyub saxlayır. Son illər türk dünyasında baş verən inteqrasiya prosesləri, ortaq dəyərlərə söykənən əməkdaşlıq və elmi-mədəni yaxınlaşma I Türkoloji Qurultayın irsinin yaşadığını bir daha təsdiqləyir. Qurultayın 100 illik yubileyinin qeyd edilməsi isə həmin tarixi hadisənin yalnız keçmişin deyil, həm də türk dünyasının gələcəyinə işıq tutan əvəzsiz mənəvi miras olduğunu göstərir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Tərəfdaşlarımız

# Çinin "CITIC Construction" şirkəti Azərbaycanda fəaliyyətini genişləndirmək niyyətindədir

**2025-ci ilin aprel ayında Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində imzalanan Birgə Bəyanat ölkələrimiz üçün yeni əməkdaşlıq imkanları yaratdı. Bu, Azərbaycanla Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında mühüm bir sənəddir və münasibətlərin yeni bir səhifəsini açaraq əlaqələrin daha da dərinləşməsinə və şaxələnməsinə xidmət edir.**



Birgə Bəyanatın bəndlərindən birində tərəflər iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqlarını bildirirlər. Əslində, Azərbaycan-Çin enerji əməkdaşlığı bundan xeyli əvvəl başlanıb. Həmin vaxtdan isə daha da genişlənir və şaxələnir. Bu ölkənin "China Energy Overseas Investment Co. Ltd.", "China Datang Overseas Investment Co. Ltd.", "PowerChina Resources Limited", "CITIC Construction Co.,Ltd." və digər şirkətləri ilə sıx işgüzar əlaqələr qurulub.

Bu günlərdə isə SOCAR və "CITIC Construction Co.,Ltd." arasında potensial əməkdaşlıq imkanlarının araşdırılması məqsədilə Çərçivə Sazişi imzalanıb.

İmzalanma SOCAR-ın prezidenti Rövşən Nəcəfin "CITIC Construction Co.,Ltd."nin İdarə Heyətinin sədri Yanq Ciançiyanq ilə görüşü zamanı olub. Belə ki, söhbət zamanı SOCAR-ın Azərbaycanda və onun hüdudlarından kənarda həyata keçirdiyi layihələr, şirkətin korporativ strateji hədəfləri barədə məlumat verilib.

Görüşdə SOCAR ilə Çinin müxtəlif şirkətləri arasında uğurlu əməkdaşlıq əlaqələrindən bəhs edilib. Bu xüsusda, SOCAR ilə "CITIC Construction Co.,Ltd." şirkəti arasında enerji infrastrukturu, eləcə də "downstream" layihələrinin reallaşdırılması, birgə müəssisələrin yaradılması imkanları nəzərdən keçirilib.

Yeri gəlmişkən, "downstream" layihələrinin mahiyyətini xatırladaq. "Downstream" aşağı axın mənasını verir. Bu layihələr neft-qaz sənayesində hasil olunmuş xam neft və təbii qazın emalı, satışı və paylanması mərhələlərini əhatə edir. Buraya neft emalı zavodları, neft-kimya istehsalı, yanacaqdoldurma məntəqələri və hazır məhsulların (benzin, asfalt, plastik və s.) bazara çıxarılması daxildir.

Göründüyü kimi, "CITIC Construction Co.,Ltd." ilə əməkdaşlığın perspektivləri genişdir. Odur ki, bu şirkətlə yaxından tanış olaq.

"CITIC Construction Co., Ltd." Çinə məxsus qlobal mühəndislik və tikinti şirkətidir. 2002-ci ilin noyabr ayında yaradılıb. O, "CITIC Group"un törəmə şirkəti olaraq Engineering News-Record (ENR) reytinqində dünyanın ən yaxşı tikinti podratçıları sırasında yer alır. Çin şirkətləri arasında birinci yerlərdən birində, dünyanın ən iri 250 podrat təşkilatları arasında isə ilk 50-likdə qərar tutur.

Şirkət EPC (mühəndislik, satınalma, tikinti), layihələndirmə, investisiya və idarəetmə xidmətləri təqdim edir. Şirkətin əsas fəaliyyət sahələri tikinti, infrastruktur, enerji, mühəndislik, investisiya və layihələrin idarə olunmasıdır.

Əsas bazarları isə Afrika, Latın Amerikası, Çin və "Bir kəmər, bir yol" xətti boyunca yerləşən ölkələrdədir. Azərbaycanda, xüsusilə SOCAR ilə enerji və neft-kimya layihələrində əməkdaşlıq potensialını araşdırır.

"CITIC Construction"un MDB ölkələri ilə də sıx əməkdaşlıq əlaqələri var. Məsələn, şirkət Belarusda sement istehsalı üzrə üç xəttin tikintisini aparıb. "BELDJİ" avtomobil zavodunu inşa edib. Orşansk kətan kombinatını modernləşdirib. Belarusun paytaxtı Minsk şəhərində yüksəktexnologiyalı arqosənaye kompleksində isə işləri sona çatdırmaq üzrədir. Şirkətin bu ölkədə digər tamamlanmamış layihələri də var. Bütün bunlarla yanaşı, "CITIC Construction" Belarusda sosial dəstək layihələri də həyata keçirir.

Şirkətin SOCAR-la imzaladığı əməkdaşlıq imkanlarının araşdırılması barədə Çərçivə Sazişi göstərir ki, onun Azərbaycandakı fəaliyyəti də getdikcə genişlənəcək və şaxələnəcək, nəticədə hər iki ölkəyə fayda gətirəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan Afina Enerji Sammitində təmsil olunub

**Azərbaycanın Yunanıstandakı səfiri Arif Məmmədov Afina Enerji Sammiti çərçivəsində keçirilən "Cənub-Şərqi Avropada enerji və diplomatiya çağırışları" adlı paneldə çıxış edib. Paneldə Türkiyə, Qazaxıstan, Bolqarıstan və Moldovanın Yunanıstandakı səfirləri də iştirak ediblər.**




AZƏRTAC xəbər verir ki, A.Məmmədov Azərbaycanın Avropa üçün etibarlı enerji təchizatçısı olduğunu bildirib. Bu əməkdaşlığın 2022-ci ildə imzalanmış Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu və Yüksək Səviyyəli Enerji Dialoqu çərçivəsində davam etdirildiyi qeyd edilib.

Səfirin sözlərinə görə, 2025-ci ildə Azərbaycan 51,5 milyard kubmetr təbii qaz istehsal edib, bunun 25,2 milyard kubmetri ixrac olunub. Avropaya tədarük edilən qazın həcmi təxminən 13 milyard kubmetr təşkil edib ki, bu da 2021-ci illə müqayisədə 56 faiz artım deməkdir. Hazırda Azərbaycan qazı "Cənub qaz dəhlizi" vasitəsilə 16 ölkəyə, o cümlədən 10 Avropa İttifaqı üzvünə çatdırılır.

Səfir qeyd edib ki, Yunanıstanın təbii qaz tələbatının təxminən 18 faizi Azərbaycan qazı hesabına ödənilir. Cənub-Şərqi Avropa ölkələrinə ixrac olunan Azərbaycan qazı həmin ölkələr üçün enerji mənbələrinin şaxələndirilməsinə töhfə verir.

Çıxışda əsas çağırışın qaz ehtiyatları deyil, infrastruktur imkanlarının məhdudluğu ilə bağlı olduğu vurğulanıb. "Cənub qaz dəhlizi"nin tam gücü ilə işlədiyi bildirilib və əlavə həcmlər üçün hasilatdan boru kəmərlərinin genişləndirilməsinə qədər bütün zəncir üzrə koordinasiyalı investisiyalara ehtiyac olduğu qeyd olunub. Bunun üçün uzunmüddətli - 15-20 illik kommersiya müqavilələrinin və maliyyə mexanizmlərinin dəstəyinin həlledici əhəmiyyəti vurğulanıb.

Azərbaycanın bərpaolunan enerji sahəsində həyata keçirdiyi layihələrə də toxunulub. Bildirilib ki, 2027-ci ilə qədər ölkədə enerji istehsalının 33,7 faizi bərpaolunan mənbələrdən təmin ediləcək, bu isə əlavə qaz həcmlərinin ixrac üçün azad olunmasına və karbon emissiyalarının azaldılmasına imkan verəcək.

Səfir, həmçinin Azərbaycanın həyata keçirdiyi "yaşıl enerji" dəhlizləri barədə məlumat verib. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən Xəzər-Qara dəniz-Avropa "Yaşıl Enerji" Dəhlizi, eləcə də Qazaxıstan və Özbəkistanla birlikdə icra edilən Mərkəzi Asiya-Azərbaycan "Yaşıl Enerji" Dəhlizindən danışılıb.

Sonda Azərbaycanın Yunanıstan, Avropa İttifaqı və regional tərəfdaşlarla enerji sahəsində əməkdaşlığı daha da dərinləşdirməyə hazır olduğu vurğulanıb.

Qeyd edək ki, Afina Enerji Sammiti Yunanıstan və region ölkələrinin hökumət nümayəndələrini, beynəlxalq təşkilatları və enerji sektorunun aparıcı aktorlarını bir araya gətirən nüfuzlu beynəlxalq platformadır. Sammitdə enerji təhlükəsizliyi, diversifikasiya və "yaşıl enerji"yə keçid ilə bağlı əsas çağırışlar müzakirə olunur.

# Narkomaniyaya qarşı mübarizə sağlam cəmiyyət və sağlam gələcək uğrunda mücadilədir

**Hazırda dünyada narkomaniya çox ciddi bir problemə çevrilib. Uzaq Şərqdən və Asiyadan başlayaraq, Avropaya, Latın Amerikasından tutmuş Şimali Amerikaya qədər çox geniş bir ərazidə narkoticarət mürəkkəb şəbəkə yaradıb. Müxtəlif istiqamətlərdə narkotiklərin qanunsuz tranziti ilə ciddi mübarizə aparılmasına baxmayaraq, hələ də milyonlarla insanın, xüsusilə də gənclərin həyatı təhlükə altındadır.**

Dövlətlər və cəmiyyətlər milyardlarla dollar zərər çəkirlər. Gənclərin sağlam həyat qurması, özlərini inkişaf etdirməsi və sosiallaşması ciddi problemlərlə qarşılaşır. Bütün bunların fonunda Azərbaycanda narkomaniya ilə mübarizə məsələsinin son dərəcə aktual olması təbiidir.

"Narkomaniya" yunancadan tərcümədə "yuxu", "huşsuzluq", "cəzbetmə" və "ağılsızlıq" mənalarını verir. Onları ümumiləşdirsək, narkomaniya insanın ağıldankənar aludəçiliyi, keyliyə zövq kimi yanaşması, yuxunu və huşsuzluğu həyatın ləzzəti hesab etməsidir. Yəni bütün məna çalarlarında narkomaniya insanın iradəsini, sağlam düşüncəsini əlindən alır. Narkomanlar üçün hüquq, insan haqları, ümumi sosial normalar anlayışı yoxdur.

Aydındır ki, narkomaniya həm fərdi, həm də sosial miqyaslarda müasir cəmiyyət üçün son dərəcə böyük təhlükədir. Birincisi, qeyd etdiyimiz kimi, cəmiyyətdə narkotik maddələr yayılmaqla insanların sağlam düşüncəsi əlindən alınır və onlar nəfsinin əsirinə çevrilirlər. İkincisi, narkotik aludəçisini öz milləti, cəmiyyəti, dövləti və hətta ən yaxın insanlarına qarşı manipulyativ şəkildə istifadə edirlər. Üçüncüsü, dövlət səviyyəsində hədəf alınan ölkəyə qarşı zorakı təsirləri qanuni və hüquqi saymağa çalışırlar. Çünki narkotiklərin qanunsuz dövriyyəsi bütün dünyada cinayət sayılır və ona qarşı mübarizəni hüquqi baxımdan vacib hesab edirlər. Deməli, narkomaniya ilə mübarizə bəşəri miqyaslarda çox təhlükəli hal kimi qəbul edilir və onunla mübarizə hər zaman təşviq olunur.



Narkomaniyanın elmi tədqiqi bütün dünyada intensivliklə aparılır. Narkotik asılılığın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində formalaşıb. Lakin narkomaniya ilə mübarizə gözlənilən nəticəni verməyib və nəticədə XX əsrin sonunda narkomaniya xalqların genofonduna sarsıdıcı zərbələr vurub.

Azərbaycanda da bu istiqamətdə elmi araşdırmalar mövcuddur. Azərbaycan alimləri narkomaniyanın bütövlükdə bəşəriyyət üçün böyük təhlükə olduğunu elmi çərçivədə təhlil edirlər. Onlar üçün narkomaniya şəxsiyyətin tam məğlubiyyətidir. Təsadüfi deyil ki, bunu "ağ ölüm" də adlandırırlar. Bütün deyilənlər narkomaniyanın çox ciddi bir sosial-psixoloji və mənəvi problem olduğunu, eləcə də cəmiyyətin mövcudluğuna güclü təsir göstərdiyini sübut edir. Bu kontekstdə gənclərin narkotik asılılığının onların sosiallaşmasına vurduğu ziyanları diqqətdən kənarda qoymaq olmaz.

## Sağlam həyat tərzinə təhlükə

Belə bir fikir formalaşıb ki, narkotik maddələrdən bir və ya bir neçə dəfə istifadə etməklə asılılıq yaranır. Tibbi təcrübələr də bu bəla ilə mübarizə aparmağın çətin olduğunu, xilasolma faizinin aşağı düşməsi faktını təsdiqləyir. Narkotikə qurşanmış insanların əksəriyyəti həyatlarını itirirlər.

Narkotikdən istifadə edən insanda əvvəl xoş hisslər yaranır. Aldadıcı təsirin - sevinc və enerjinin narkotikdən qaynaqlanmasına inanır. Bu qənaət tamamilə yanlışdır. Əgər bu, aludəçinin düşündüyü kimi olsaydı, o, cəmiyyətin ən fərəhli, ən gümrah, öz karyerasında və şəxsi həyatında uğur qazanan insanı olardı.

Narkotik asılılığın sosial mühit kontekstində təzahürünün müxtəlif səbəblərindən də bəhs edilir. Məsələn, belə vurğulanır: "Ailədə və işdə yaranan problemlər, düzgün seçilməyən mühit, psixoloji zəiflik tez təsir altına düşmə və digər müxtəlif səbəblər zəif insanları narkotikdən istifadəyə yönəldir. Əlbəttə, bu maddələrdən əyləncə məqsədilə istifadə edənlər də var. Narkomaniyanın yayılması millətin sağlam həyat tərzinə təhlükə törədir".

Bu istiqamətdə tədqiqatlar son dövrlərdə daha intensiv aparılır. 2025-ci ildə aparılan tədqiqatların birində deyilir: "Azərbaycanın Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının məlumatına görə, hər il, əgər bütün dünyanı və narkotik vasitələrin növlərini nəzərə alsaq, dünyada istifadəçilərin sayı təxminən 3,3 faizdən 6,5 faizə qədərdir. Bu acılı statistika Azərbaycana da aiddir. Demək olar ki, sadəcə Azərbaycan yox, bütün dünya uzun müddətdir ki, bu fəlakətlə qarşı-qarşıyadır. Mütəxəssislər yazırlar ki, müxtəlif cəmiyyətlərdə fərqli psixotrop və narkotik maddələrlə əlaqədar olaraq submədəniyyətlər formalaşıb. Bəzi narkotik maddələr insanda psixoloji asılılıq təsiri meydana gətirir, bəziləri isə psixoloji və fiziki olaraq insanı əsir edib məhrumiyyət hissi formalaşdırır.

Hazırda dünya üçün daha bir məsələ də aktualdır. Belə ki, bu sahənin araşdırıcıları dərmanlardan qeyri-rasional istifadənin fəsadlarına diqqət yönəldirlər. Narkomanlar bir sıra hallarda müalicədən yayınır və ya onu təxirə salırlar. Bu baxımdan, səhiyyə xidmətlərinin əlçatarlığı, ictimai dəyərlər, ənənələr və qanunların cəmiyyətə təsirləri məsələsi də aktuallaşır. Çünki onun insanların dərmandan istifadəyə qarşı mövqe və davranışlarını formalaşdırmaqda mühüm rolu vardır".

## Cəmiyyətin sosial strukturu, lokal və beynəlxalq cinayətkarlıq

Vurğulanan xüsusiyyətlərin fonunda müasir cəmiyyətlərdə gənclərin pozitiv sosiallaşması məsələsinin nə dərəcədə əhəmiyyətli olduğu aydınlaşır. Gənclər cəmiyyətin gələcəyidirlər. Amma onlar topluma faydalı olmaq istiqamətində sosiallaşmasalar, gələcəkdə kriminallaşma və hüquqsuzluq arta bilər, insanların ictimai faydalı olmaq potensialı isə sürətlə azalar. Hətta narkomanlar cəmiyyətin bütövlüyü və mənəvi-əxlaqi dünyası üçün ciddi təhlükəyə və risk mənbəyinə çevrilirlər. Yad dairələr, adətən, narkomanlardan dövlətçiliyə və milli maraqların təmininə ciddi zərbə vurmaq üçün istifadə etməyə çalışırlar.

30 ilə yaxın müddətdə davam edən və Azərbaycanın tarixi ədaləti və haqlarını bərpa etməsi ilə yekunlaşan Ermənistan-Azərbaycan münaqişəsi bütün sahələrdə olduğu kimi, narkotiklərin ölkə ərazisində qanunsuz dövriyyəsinə də öz mənfi təsirini göstərirdi. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğal altında saxlanması, Azərbaycanın İranla olan dövlət sərhədinin 132 kilometrinə Ermənistan silahlı qüvvələrinin nəzarət etməsi nəticədə həmin sahədən Avropa və Qara dəniz hövzəsi ölkələrinə, digər ərazilərə narkotik maddələrin güclü axınının həyata keçirilməsi ilə nəticələnmişdi. Qarabağ və Şərqi Zəngəzur ərazisi narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, transmilli cinayət üçün nəzarətsiz zona kimi istifadə olunurdu. Nəhayət ki, Azərbaycan tarixi zəfəri ilə bu tip cinayət əməllərinə birdəfəlik son qoydu.

Azərbaycanda narkomanlığa qarşı sistemli və davamlı mübarizə Ulu Öndər Heydər Əliyevin 1996-cı il avqustun 26-da imzaladığı fərmanla başlayıb. "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" həmin fərmanın 3-cü bəndində yazılıb: "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyasına tapşırılsın ki, Azərbaycan Respublikasında narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə yeni ümummilli proqramı üç ay ərzində hazırlasın".

Narkomaniya ilə mübarizənin "yeni ümummilli proqram" statusunda aparılması çox mühüm tarixi hadisədir. Çünki bu, narkomaniyaya qarşı siyasi və hüquqi mübarizəni bütövlükdə cəmiyyət və dövlət üçün prinsipial səviyyəyə yüksəldir. Onun "ümummilli proqram" kimi qəbul edilməsi isə sözügedən proqramın həyata keçirilməsinin birbaşa dövlət işi olduğunu göstərir.

Bu prosesdə Ulu Öndər Heydər Əliyevin səyləri sayəsində 1999-cu il iyunun 18-də "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" qanunun qəbul edilməsi çox mühüm hüquqi addımdır. Qanunun "Ümumi müddəalar" hissəsində aşağıdakı iki bənddə ümumiyyətlə "narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi" anlayışına və ayrılıqda onun hansı hallarda qanunsuz sayıldığına aydınlıq gətirilir.

Prosesi bu gün Prezident İlham Əliyev davam etdirir. Dövlət başçısının 2019-cu il 22 iyul tarixli sərəncamı ilə təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" xüsusi qeyd edilməlidir. Proqramın xüsusiyyətlərindən bəhs edərkən vurğulanır ki, dövlətin bütün hüquq-mühafizə orqanları qarşısında narkomanlığa qarşı koordinasiyalı mübarizə aparmaq vəzifəsi qoyulub.

Bu sahədə qətiyyətli mübarizənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə gənc nəslin sağlamlığının qorunması və onların hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlərin də olduqca əhəmiyyətli olması xüsusi qeyd olunmalıdır.

## Məqsədyönlü dövlət siyasəti

Azərbaycanda narkomaniya məsələsinə bütövlükdə dünyada bu sahədə gedən proseslərin fonunda baxmaq lazımdır. Hazırda bütün dövlətlər bu bəla ilə mübarizə aparır. Eyni zamanda bir sıra böyük dövlətlər narkoticarəti bəhanə edərək ölkələrin müstəqilliyinə qəsd etmək istiqamətində addımlar atırlar. Lakin bu cəhdlərə baxmayaraq, hər bir dövlət üçün narkomaniya ilə mübarizə aparmaq həyati əhəmiyyət kəsb edir.

Azərbaycanda bununla bağlı artıq təcrübə toplanılıb. Bu təcrübə narkomaniya ilə mübarizənin Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş hüquqi aspektləri ilə bağlıdır. Keçən əsrin son illərində narkomaniya ilə bağlı qəbul edilən hüquqi sənədlər göstərir ki, Azərbaycan müstəqil dövlət kimi məsələni hərtərəfli təhlil edib və kompleks xarakterli tədbirlərin həyata keçirilməsi kursuna başlayıb. Buraya yerlərdə narkotik vasitələrin qanunsuz istehsalının qarşısının alınması, onun tranziti, gənclər arasında yayılması prosesinin qarşısının alınması, ətraf regionlardan qaynaqlanan narkoticarətin ölkə ərazisindən tranzit kimi istifadəsinə yol verilməməsi və digər məsələlər daxildir.

Prezident İlham Əliyev xüsusi sərəncamla narkomaniyaya qarşı mübarizədə dövlətin bütün hüquq-mühafizə orqanlarının koordinasiyalı fəaliyyət göstərməsini təmin edib. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər)" və onun davamı kimi "2013-2018-ci illər üçün narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramı" və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın da əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Bu kimi hüquqi addımların fonunda Azərbaycanda narkomaniya ilə mübarizəni əks etdirən faktların sayı olduqca çoxdur.

Beləliklə, Azərbaycan müstəqil dövlət kimi narkomaniyaya qarşı mübarizəni milli, regional və qlobal miqyaslarda bu sahə üzrə həyata keçirilən proqramlara uyğun şəkildə aparır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Dövlət biznesin etibarlı güvəni, biznes dövlətin iqtisadi dayağıdır

**Son illər Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində atılan addımlar real nəticələrlə müşayiət olunur. Dövlət biznesə yanaşmasını dəyişib: artıq yalnız nəzarət etmir, eyni zamanda sahibkarlara dəstək olur və onların inkişafını təşviq edir. Xüsusən kiçik və orta sahibkarlıq subyektləri üçün yaradılan imkanlar iqtisadi fəallığın güclənməsinə xidmət edir.**



Azərbaycanda bu biznes subyektləri həm də məşğulluğun artırılmasında və innovasiyaların tətbiqində, eləcə də rəqabətqabiliyyətli iqtisadi mühitin formalaşdırılmasında vacib rol oynayır. Həmçinin iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişafın təmin edilməsi məqsədilə sahibkarlara dövlət dəstəyi mexanizmləri ardıcıl şəkildə genişləndirilir. Bu baxımdan, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış edir. Maliyyə resurslarına çıxışın sadələşdirilməsi, vergi və gömrük güzəştləri, idarəetmə və struktur islahatları, eləcə də təlim və məsləhət xidmətləri sahibkarların fəaliyyətinin stimullaşdırılmasına xidmət edir. Dövlət və özəl sektor arasındakı əməkdaşlıq prinsipləri biznes mühitinin sağlam inkişafını təmin edir və yeni iqtisadi perspektivlər açır.

Sahibkarlara dövlət dəstəyi çərçivəsində güzəştli kreditlər, zəmanətlər və subsidiyalar bir çox biznes ideyasının həyata keçməsini mümkün edir. Əvvəllər maliyyə çatışmazlığı səbəbindən fəaliyyətə başlaya bilməyən və ya genişlənməkdə çətinlik çəkən sahibkarlar üçün indi bu dəstək mühüm stimul rolunu oynayır. Onun miqyası və real təsiri rəqəmlərdə də aydın şəkildə öz əksini tapır: bu il yanvarın 1-nə qədər İpoteka və Kredit Zəmanət Fondunun zəmanəti ilə Azərbaycan sahibkarlarına güzəştli şərtlərlə 684 milyon manat kredit verilib ki, bunun da 147 milyon manatı 2025-ci ilin payına düşüb.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2017-ci il noyabrın 29-da imzaladığı fərmanla ilk dəfə olaraq Azərbaycanda sahibkarların müvəkkil banklardan milli valyutada aldıqları kreditlərə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə hesablanmış faizlərin bir hissəsinin subsidiya edilməsi mexanizmi tətbiq olunmağa başlanılıb. Bu mühüm qərar bankların kredit risklərinin azalmasına da şərait yaradıb. Qeyd edək ki, sahibkarların maliyyə resurslarına çıxışını genişləndirmək və kreditlər üzrə ödəniş yükünü yüngülləşdirmək məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına fond tərəfindən 2018-2024-cü illər ərzində sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərə görə, ümumilikdə 47,4 milyon manat subsidiya ayrılıb. Bu dəstək minlərlə sahibkarın fəaliyyətini davam etdirməsinə və biznesini genişləndirməsinə real imkan yaradıb.

Mexanizm çərçivəsində indiyədək zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay olub. Faiz subsidiyası hesabına sahibkarların ödəyəcəyi kreditlərin faktiki illik faiz dərəcəsi 6,8 faizə qədər endirilib. Hər bir sahibkara ayrılan kreditin həcmi isə biznesin ehtiyacına uyğun olaraq 30 min manatdan 5 milyon manata qədər dəyişib ki, bu da həm kiçik, həm də iri sahibkarlığın maliyyə imkanlarını əhəmiyyətli dərəcədə artırır. Kreditlər, əsasən, sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastruktur layihələrinə, həmçinin maşın və avadanlıq istehsalına, ticarət və xidmət sahələrinə yönəldilib. Fondun zəmanət və faiz subsidiyası mexanizmi ilə sahibkarlara ayrılan bu kreditlər vasitəsilə həyata keçiriləcək layihələr nəticəsində 6000-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Bu da təbii ki, iqtisadi fəallığın artmasını və regionlarda məşğulluğun genişlənməsini təmin edəcək.

Dövlətin sahibkarlara göstərdiyi dəstək yalnız maliyyə resursları ilə məhdudlaşmır. Paralel olaraq həyata keçirilən təlim proqramları, maarifləndirmə tədbirləri və məsləhət xidmətləri biznes subyektlərinin bilik və bacarıqlarının artırılmasına xidmət edir. Xüsusilə gənc sahibkarlar və startaplar üçün yaradılan bu imkanlar yeni və innovativ ideyaların real iqtisadi nəticələrə çevrilməsinə şərait yaradır. Regionlarda sahibkarlığın sistemli şəkildə təşviqi isə yerli məşğulluğun genişlənməsinə, iqtisadi fəallığın artmasına və əhalinin sosial rifahının yüksəlməsinə imkan verir.

Qeyd etdiyimiz kimi, Azərbaycanda sahibkarlığın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizdə biznes mühitinin əlverişli şəraitlə təmin edilməsi, sahibkarlara maliyyə və hərtərəfli dəstəyin göstərilməsi, həmçinin biznesin fəaliyyətini asanlaşdıran qanunvericilik təşəbbüsləri iqtisadiyyatın dayanıqlı inkişafı üçün yol açır. Prezident İlham Əliyev sahibkarlarla müntəzəm görüşlər keçirir, yeni müəssisələrin açılışlarında iştirak edərək, onların fəaliyyətinə dövlət tərəfindən verilən dəstəyin əhəmiyyətini bir daha vurğulayır. Bu addımlar sahibkarların sosial məsuliyyətini artırır, biznes mühitində pozitiv dinamikanı gücləndirir.

Bu gün Azərbaycan Biznesinin İnkişafı Fondu (BİF), eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ölkə sahibkarlarının maliyyə, təlim və məsləhət dəstəyi ilə bağlı fəaliyyətini uğurla davam etdirir. Dövlətin sahibkarlığa göstərdiyi hərtərəfli diqqət və dəstək milli iqtisadiyyatın inkişafına təkan verir, neftdənkənar sahənin güclənməsinə xidmət edir. Nəticə etibarilə sahibkarlara göstərilən dövlət dəstəyi ölkə iqtisadiyyatının güclənməsində, rəqabət qabiliyyətinin artmasında və sosial sabitliyin qorunmasında mühüm rol oynayır. Bu siyasətin davamlı və sistemli şəkildə həyata keçirilməsi gələcəkdə daha güclü biznes mühitinin formalaşacağına inam yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# BTQ ilə yükdaşımaların həcminin artırılması üçün tədbirlər görülür

**Azərbaycan daxili dəmir yollarını modernləşdirməklə yanaşı, qonşu Gürcüstanda da bu istiqamətdə işlər görür. Paralel olaraq Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyətə başlaması, beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq məsələləri də davam etdirilir. Məqsəd ölkəmizin qlobal səviyyədə tranzit imkanlarını artırmaqdır.**




Qarşıya qoyduğu hədəfə nail olmaq üçün "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) və "Marabda-Kartsaxi Dəmir Yolu" MMC-nin törəmə şirkətlərinin birgə müəssisəsi olan "BTKI Railways" MMC ilə "Gürcüstan Dəmir Yolları" SC arasında Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti üzrə birgə müəssisənin tam fəaliyyətə başlamasını təmin etmək üçün müqavilələr imzalanıb.

Müqavilələrdən biri Marabda-Axalkalaki dəmir yolu infrastrukturundan istifadəni, digəri Axalkalaki stansiyasında terminal xidmətlərinin göstərilməsini nəzərdə tutur. Tərəflər arasında imzalanan yeni razılaşmalar Orta dəhlizin mühüm seqmenti olan BTQ üzrə əməliyyatların daha səmərəli təşkilinə və yükdaşıma həcmlərinin artırılmasına imkan verəcək.

Qeyd edək ki, ADY BTQ xəttinin Gürcüstandan keçən və mürəkkəb coğrafi relyefə malik 184 kilometrlik hissəsində təmir-bərpa və modernləşdirmə işlərini yekunlaşdırıb, nəticədə xəttin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb. Bu dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta dəhlizin rəqabət qabiliyyətini artırmaq və BTQ-ni dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirməkdir.

Birgə müəssisənin fəaliyyəti BTQ üzrə əməliyyatların səmərəli idarə olunması və yeni yüklərin cəlbi, regionda strateji nəqliyyat əlaqələrinin gücləndirilməsi və Orta dəhlizin potensialının artırılması kimi istiqamətləri əhatə edir.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında Zəngəzur dəhlizinin Trans-Avropa nəqliyyat şəbəkələrinə (TENT) əlavə olunması ətrafında fikir mübadiləsi aparmaq üçün "Avropa Komissiyasının Qonşuluq və Genişlənmə danışıqları üzrə baş direktoru Gert Can Kupman ilə görüşüb. Görüşdə Naxçıvanın nəqliyyat infrastrukturunun inkişafı və bu istiqamətdə texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına başlanılması ilə bağlı məsələləri müzakirə olunub, süni intellekt və kibertəhlükəsizlik sahəsində kadr potensialının gücləndirilməsi, Aİ şirkətlərinin Azərbaycanda fəaliyyəti barədə danışılıb, Azərbaycanın Aİ-nin "Horizon Europe" proqramı çərçivəsində layihələrdə iştirakı imkanları nəzərdən keçirilib. Tərəflərin həmçinin Orta dəhlizin potensialının artırılması və rəqəmsallaşdırılması, eləcə də aviasiya, dəniz nəqliyyatı, süni intellekt və kibertəhlükəsizlik sahələrində Aİ ilə əməkdaşlıq imkanları barədə də geniş fikir mübadiləsi aparıb.

Xatırladaq ki, Avropa İttifaqı və Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birlikdə Naxçıvan dəmir yolu layihəsinin hazırlanması üçün texniki-iqtisadi əsaslandırma işləri görəcək. Bu dəmir yolu 15 günlük planlaşdırılmış tranzit daşınma müddətində Avropa ilə Mərkəzi Asiyanı birləşdirməyi hədəfə alan daha geniş Trans-Xəzər Nəqliyyat Dəhlizinin bir hissəsini təşkil edəcək.

Avropa və Asiya arasında marşrutların şaxələndirilmiş, etibarlı və sabit olması ortaq strateji maraqlara xidmət edir. Belə ikitərəfli və regional dəstək proqramları ilə yanaşı, innovativ maliyyə alətləri vasitəsilə gələcək prioritet layihələr Aİ və Azərbaycan arasında iqtisadi əlaqələri gücləndirəcək. Eyni zamanda Azərbaycana iqtisadiyyatını şaxələndirmək, regional bağlantıları gücləndirmək istiqamətində əlavə imkanlar yaradacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Ötən ilin uğurları, bu ilin vəzifələri

## Gəncə ikinciliyi əldən vermədi






**Gəncədə 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarətlə və şəhərin sənaye müəssisələrində istehsal olunan məhsullardan ibarət sərgiyə baxışla başlayan yığıncaqda öncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış etmişdir.**

Bildirmişdir ki, 2025-ci il sosial və iqtisadi vəzifələrin icrası, nəzərdə tutulmuş proqramların reallaşdırılması, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və beynəlxalq nüfuzun artırılması baxımından Azərbaycan üçün uğurlu olmuşdur: "Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi sistemli islahatlar və atdığı qətiyyətli addımlar nəticəsində ölkənin dayanıqlı inkişafı davam etmişdir". Bu ilin Gəncə üçün daha əlamətdar olduğunu deyən N.Bayramov ötən ilin avqust və sentyabr aylarında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhərə səfərlərinin ictimaiyyət arasında ruh yüksəkliyi yaratdığını vurğulamışdır.

M.Bayramov diqqətə çatdırmışdır ki, qədim mədəniyyəti və zəngin tarixi olan Gəncə 2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin "İdman paytaxtı" seçilmişdir: Keçən il Gəncə və daha 6 şəhər - Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi III MDB Oyunlarına evsahibliyi etmişdir. 10 gün davam edən yarışlara MDB ölkələri ilə yanaşı, Türkiyə, Pakistan və digər ölkələrdən ümumilikdə 2400 nəfərlik idman nümayəndə heyəti də qatılmışdır.

Sonra şəhər icra hakimiyyəti başçısının müavini Adil Tağıyev hesabat məruzəsi ilə çıxış etmişdir. Bildirmişdir ki, il ərzində şəhərin iqtisadi göstəriciləri artmış, yeni istehsal sahələri yaradılmış və yeni iş yerləri açılmışdır.

Hesabat yığıncağında Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin rəisi Elçin Kərimov, Azərbaycan Dövlət Turizm Agentliyinin Gəncə Regional Turizm İdarəsinin rəisi Fariz Qarayev, "Azəriqaz" İstehsalat Birliyinin Gəncə Regional Qaz İstismar İdarəsinin rəisi Hüseyn Şirinov, "Azərişıq" ASC-nin Qərb Regional Enerji Təchizatı və Satışı İdarəsinin Gəncə Elektrik Şəbəkəsinin rəisi Elgün Qafarov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ-nin Gəncə Şəhər Sukanal İdarəsinin rəisi Şöhrəddin Verdiyev, "Azəralüminium" MMC-nin direktorunun birinci müavini Oqtay Rəfiyev, Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin direktoru Amin Əliyev, "Rövşən Oğuz" Qrup MMC-nin baş direktoru Hafiz Mustafayev və şəhid Mirhüseyn Seyidzadənin atası Miryunis Seyidzadə çıxış etmişlər.

Sonda il ərzində şəhərin ictimai-siyasi həyatında və abadlıq-quruculuq sahələrində göstərdikləri səmərəli fəaliyyətə görə bir qrup şəxsə Gəncə Şəhər İcra Hakimiyyətinin "Təşəkkürnamə"ləri təqdim olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## 192,2 milyon manatlıq kənd təsərrüfatı, 47,1 milyon manatlıq sənaye məhsulları

### Bu, Goranboyda keçən il əldə olunan uğurların rəqəmlə ifadəsidir



**Keçən il Goranboyda ümumi məhsul buraxılışının dəyəri 494 milyon 752 min manat olmuşdur. Bunun 76,6 faizi məhsul istehsalının, 23,4 faizi xidmət sahələrinin payına düşmüşdür.**

Kənd təsərrüfatında istehsal olunan ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 192 milyon 240 min manata çatmışdır. Onun 117 milyon 266 min manatı bitkiçilikdən, 74 milyon 973 min manatı heyvandarlıq məhsullarından əldə edilmişdir. Ötən il həmçinin rayonda 47 milyon 116 min manatlıq sənaye məhsulları istehsal olunmuşdur.

Bu faktlar Goranboyda 2025-ci ilin sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında səslənmişdir. Hesabat məruzəsi ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev bildirmişdir ki, 2024-2025-ci əkin ilində 19561 hektar payızlıq taxıl səpini aparılmışdır. 54 inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin ərazisində 18713 hektar sahədə taxıl biçini həyata keçirilmiş və ümumilikdə 62812,2 ton məhsul əldə olunmuşdur. Bu isə hər hektardan orta hesabla 33,6 sentner məhsuldarlıq deməkdir. 2025-ci ildə ötən illə müqayisədə 333 hektar çox, yəni 25050,50 hektar şumlama işləri aparılmışdır ki, onun da 14081,5 hektarı arpa, 5787,5 hektarı buğda olmuşdur. Aqrar sahədə fəaliyyət göstərən "Azərşəkər", "Azərpambıq ASK", "Prime Cotton" və "Goran Cotton" MMC-ləri ilə əməkdaşlıq çərçivəsində 371 mülkiyyətçi ilə ümumilikdə 1983,3 hektar sahəni əhatə edən müqavilələr bağlanmış, əkin və istehsal prosesinin səmərəli təşkili təmin edilmişdir. Pambıq istehsalı 6030 tona, məhsuldarlıq 30,4 sentnerə çatmışdır.

Sosial məsələlərə gəldikdə, məruzədən məlum oldu ki, ötən il Gəncə-Daşkəsən Regional Məşğulluq filialının Goranboy rayon xidmət şöbəsinə 4948 nəfər vətəndaş müraciət etmiş, onlardan 934 nəfər daimi işlə və ya özünüməşğulluq proqramı çərçivəsində əmlakla təmin edilmişdir. Ümumilikdə il ərzində 13480 nəfər mövsümi və günəmuzd işlərə, 49 nəfər peşəsi olmayan və ya əvvəlki peşəsi üzrə iş tapa bilməyən işsiz və ya işaxtaran vətəndaş peşə hazırlığı kurslarına cəlb olunmuşdur. Rayon icra hakimiyyəti və Gəncə-Daşkəsən Regional Məşğulluq filialının birgə təşkilatşılığı ilə 17 işəgötürənin təqdim etdiyi 202 vakansiya təqdim olunmaqla 300 nəfərdən artıq vətəndaşın iştirakı ilə əmək yarmarkası təşkil olunmuşdur.

Məlum olduğu kimi, Goranboy 2026-cı il üçün "Gənclər Paytaxtı" seçilmişdir. Bununla bağlı il ərzində silsilə tədbirlərin keçirilməsi üçün hazırlıq işlərinə başlanılmışdır.

Sonra rayon Ağsaqqallar Şurasının sədri Rəddin Məmmədov, Qərbi Azərbaycan İcmasının Goranboy nümayəndəsi Ürfət Həsənov, Su Meliorasiya Sistemləri İstismarı İdarəsinin rəisi Fuad Əliyev, Milli Qəhrəman Niyazi Aslanovun həyat yoldaşı Rübabə İsmayılova, Vətən müharibəsi qazisi Valeh Hüseynov, sahibkar Arzu Papırlı və başqaları çıxış edərək keçən il rayonda qazanılan uğurlardan və cari il qarşıda duran vəzifələrdən söz açmışlar.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Şabran kəndlisi çətinə düşəndə dövlətinə güvənir

**Ölkəmizdə aqrar sektora verilən dövlət dəstəyi sayəsində kənd təsərrüfatı məhsullarının bolluğu yaranır, ixrac imkanları artır. Bununla yanaşı, kəndlinin məşğulluğu təmin olunur və gəlirləri çoxalır.**

Şabranda da aqrar sahənin inkişaf tempi davam edir. Keçən il rayon üzrə 14670,3 hektar taxıl sahəsindən 42707,1 ton məhsul tədarük edilmiş, orta məhsuldarlıq 29,1, o cümlədən buğda üzrə 29,7, arpa üzrə 28,4 sentner olmuşdur.

Şabranda ümumi əkinlərin 18,9 faizi çoxillikdir. Ötən il 127 hektar sahədə yeni bağlar salınmışdır. Bunun 118,6 hektarı intensiv, 4,8 hektarı superintensiv, 3,6 hektarı ənənəvi üsulla salınmış bağlardır. İntensiv və superintensiv meyvə bağlarının sahəsi cəmi meyvə bağlarının 41 faizini təşkil etmişdir. İntensiv bağların sahəsinin artması hesabına meyvə bağlarının məhsuldarlığı da yüksəlmişdir.

Rayon üzrə çoxillik bitkilərin əkin sahəsi 4107 hektardır. Bu bağlarda alma, armud, heyva, şaftalı, ərik, gilas, albalı və digər meyvələr yetişdirilir. Şabranda badam, fındıq, nar və xurma kimi meyvələr məhsuldarlığı ilə seçilir. Bu meyvələrin bəziləri son bir neçə ildə salınan bağların məhsullarıdır.

Şabranlılar yetişdirdikləri məhsulları ziyanvericilərdən və xəstəliklərdən ciddi qoruyurlar. 2025-ci ildə 3692,5 hektar meyvə bağında müşahidələr aparılmışdır. 476,2 hektarda əsas zərərvericilər, 15,5 hektarda qəhvəyi mərmər bağacığı, 8,3 hektarda isə sirayətlənmə müşahidə olunmuş və onlara qarşı müvafiq mübarizə tədbirləri həyata keçirilmişdir.

Heyvandarlıq sahəsindəki vəziyyətə gəldikdə, rayon üzrə 23,9 min baş qaramal, 50 min baş qoyun və keçi qeydə alınıb. Şabranda maldarlığın inkişafında qaramalın cins tərkibinin yaxşılaşdırılması yolu ilə məhsuldarlığın yüksəldilməsi əsas istiqamət kimi




götürülüb. Ötən il 504 baş qaramalda süni mayalanma aparılmışdır ki, bu da əvvəlki ilə nisbətən 160 baş artım deməkdir.

Rayon ərazisində yerləşən istixanaların, gübrə satış məntəqələrinin, tingçiliklə məşğul olan fermerlərin siyahısı dəqiqləşdirilmişdir. Bu yerdə qeyd edək ki, Şabranda mövcud olan 12 istixanadan yalnız 7-si fəaliyyət göstərir. Bundan əlavə, rayon ərazisində 3 soyuducu anbar var. Bu, fermerlərin bağlardan topladıqları məhsulların uzun müddət saxlanılmasına bəs edir.

Ötən il kənd təsərrüfatına göstərilən dövlət dəstəyi tədbirləri davam etmişdir. Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına 2690 istehsalçıya 10275,6 hektar əkin sahəsinin becərilməsi üçün təxminən 2,4 milyon manat subsidiya ödənilmişdir.

Bütün bu və digər səbəblər hər bir şabranlının güzəranına, ailəsinin dolanışığına təsir edən amillərdir. Bu gün Şabran kəndlisi torpağı çörək təknəsinə çevirib. Dövlətinə arxalanan kəndli əkin-biçindən əlini soyutmur, çətinliyə düşəndə ona güvənir. Rayonda fəaliyyət göstərən fermer təsərrüfatları dövlətdən aldığı subsidiyalar və lizinqlərlə təsərrüfatlarını inkişaf etdirir, qazanclarını artırırlar. Bu isə kəndlinin büdcəsi deməkdir. Necə deyərlər, torpaq çəkilən zəhməti birə beş qaytarır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Xankəndi, Xocalı və Ağdərəyə növbəti qayıdış gerçəkləşib

**İşğaldan azad olunmuş ərazilərə "Böyük qayıdış" proqramı çərçivəsində yanvarın 30-da Kərkicahan qəsəbəsinə, Xanyurdu və Təzəbinə kəndlərinə növbəti köç karvanı yola salınıb. İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq davam edir. Yanvarın 30-da respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə, Xocalı rayonunun Xanyurdu və Təzəbinə kəndlərinə yola salınıb.**










Ailələri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə onlara mənzillərin açarları təqdim edilib.

Sakinlərə mənzillərin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Böyük qayıdış" proqramının məqsəd və vəzifələri barədə məlumat verib. Bildirib ki, dövlət başçısının tapşırıq və göstərişlərinə uyğun olaraq azad edilmiş ərazilərdə müasir infrastruktur qurulur, yaşayış evləri, sosial obyektlər inşa edilir və sakinlərin rahat, təhlükəsiz şəkildə məskunlaşması üçün hərtərəfli şərait yaradılır. Torpağına qayıdan insanların məşğulluq məsələsi də daim diqqətdə saxlanılır. "Böyük qayıdış" proqramı çərçivəsində köç prosesi mərhələli şəkildə davam edir.

Sonra ailələr sevinc hissilə yeni evlərində yerləşiblər.

Bu mərhələdə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə 25, Ağdərə rayonunun Həsənriz kəndinə 52, Xocalı rayonunun Xanyurdu kəndinə 24, Təzəbinə kəndinə isə 41 nəfər köçürülüb. Uzun illərdən sonra doğma torpaqlara qayıdışı sevinc hissilə qarşılayan ailələr Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Xocalı sakinləri həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə edib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

## Aslanovlar ailəsinin qayıdış hekayəsi

**Otuz üçillik məcburi köçkünlük həyatı Ağdərə rayonundan olan Aslanovlar ailəsinin yaddaşında ağır iz qoyub. Vətən həsrəti ilə keçən köçkünlük illərində çətinliklərlə qarşılaşsalar da, ailənin doğma yurda qayıdış ümidi heç vaxt sönməyib. Artıq həmin ümid gerçəyə çevrilib, Aslanovlar ailəsi uzun illərdən sonra yenidən ata-baba yurduna - Aşağı Oratağ kəndinə qayıdıb.**



Ailənin başçısı Mütəllim Aslanov Ağdərəni tərk edəndə 19 yaşı olub. O illərdən danışarkən köçkünlük həyatının bütün ağırlığını xatırlayır: "Əvvəlcə Bərdə rayonunun Şorəlli kəndində, daha sonra isə 866 ailəlik qəsəbədə məskunlaşdıq. Elə günlərimiz olub ki, 3-4 ailə bir yerdə yaşamışıq. Elə olub ki, yatmağa yerimiz, yeməyə çörəyimiz olmayıb. Ancaq bütün çətinliklərə dözmüş, bir gün yurdumuza qayıdacağımız günü səbirsizliklə gözləmişik".

Köçkünlük illəri Aslanovlar ailəsi üçün itkilərlə də yadda qalıb. Mütəllim Aslanovun valideynləri həmin illərdə dünyasını dəyişib. "Təəssüf ki, ata-anam bu günü görə bilmədi. Amma şükürlər olsun ki, uzun illərdən sonra Ağdərəyə qayıtmaq mənə nəsib oldu", - deyə o bildirir.

Bu gün Mütəllim Aslanov 53 yaşında ailəsi ilə - həyat yoldaşı, iki oğlu və bir qızı ilə birlikdə doğma yurda dönüb. Onun sözlərinə görə, bu qayıdış sözlə ifadə olunmayacaq qədər böyük sevincdir. "Bu qayıdışa, bu sevincə görə Ali Baş Komandana, ordumuza minnətdaram. Allahdan şəhidlərimizə rəhmət, qazilərə cansağlığı diləyirəm" - deyə, o vurğulayır.

Mütəllim kişinin həyat yoldaşı Sevinc xanım Laçın rayonunda doğulub, 12 yaşına kimi orada yaşayıb. Laçın rayonu işğal olunandan sonra Bərdədə məskunlaşıb. Elə Mütəllim kişi ilə də Bərdədə tanış olub, ailə qurublar. "Köçkünlük illərində torpaqlarımıza qayıdacağımızla bağlı ümidimizi heç vaxt itirmədik. Bu gün hər zaman arzu etdiyimiz torpaqlarımıza qayıtmışıq. Bu, bizim üçün yeni bir həyatın başlanğıcıdır", - deyir Sevinc xanım.

Ailənin övladı Şirxan Aslanzadə ata-baba yurdunda yaşamağın xoş olduğunu bildirir. Onun sözlərinə görə, Ağdərəni görməzdən əvvəl bu yerləri yalnız böyüklərin xatirələrində eşidib, xəyalında canlandırıb: "Böyüklərimiz Ağdərə haqqında çox danışıblar. Həmişə bu yerləri təsəvvürümdə canlandırır, bir gün görmək arzusu ilə yaşayırdım. Ancaq gələndə təsəvvür etdiyimdən də gözəl gördüm buraları. Ata-baba yurdumu görmək, burada yaşamaq mənim üçün olduqca çox xoş oldu".

Musiqi müəllimi olan Şirxan gələcək planlarından da danışır. Bildirir ki, arzusu doğma rayonunda, ata-baba torpağında çalışmaqdır: "İstəyirəm gələcəkdə rayonumuzda tar ixtisası üzrə musiqi müəllimi işləyim və burada yaşayan uşaqlara sənət öyrədim".

Aslanovlar ailəsinin Ağdərəyə qayıdışı illərlə davam edən yurd həsrətinin sonu, doğma torpaqda yeni həyatın başlanğıcıdır. Artıq gələcəyə ümidlə baxan ailə yarım qalan xatirələrini doğma torpaqlarında yenidən canlandırırlar.



# Vətən deyəndə...



## Tarix yazan oğullar

**Tarix boyu xalqımız Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olan igid oğullarla fəxr etmişdir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlayanda da qəhrəman oğullarımız silaha sarılaraq Vətənin müdafiəsinə qalxdılar. Ölkəmizin qeyrətli, mübariz övladları "Təki Vətən sağ olsun" deyərək canlarını fəda etdilər.**

# 8 kəşfiyyatçımızın 29 ildir dillərdən düşməyən qəhrəmanlığı

### "Ölsəm, qar örtüyümü kəfən edərsiz"

Tarix boyu xalqımız Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olan igid oğullarla fəxr etmişdir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlayanda da qəhrəman oğullarımız silaha sarılaraq Vətənin müdafiəsinə qalxdılar. Ölkəmizin qeyrətli, mübariz övladları "Təki Vətən sağ olsun" deyərək canlarını fəda etdilər.

İstər Birinci, istərsə də İkinci Qarabağ döyüşlərində respublikamızın bütün bölgələrindən fədakar və vətənpərvər oğullar işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda özlərini odun-alovun içinə ataraq qəhrəmanlıq göstərdilər. Onlar düşmənə qarşı son damla qanlarına qədər vuruşub ölkəmizin müstəqilliyi və azadlığı yolunda şəhidlik zirvəsinə ucaldılar. Bu gün xalqımız haqlı olaraq belə igidlərlə öyünür, onların xatirələrini qəlbində yaşadır.

1997-ci il aprelin 7-də Azərbaycan Ordusunun 8 nəfərdən ibarət xüsusi təyinatlı kəşfiyyat qrupu üzvlərinin işğal altında olan Xocavənd istiqamətində göstərdikləri qəhrəmanlıq bu gün də dillər əzbəridir. Kəşfiyyatçılarımız həmin gün düşmənin içərilərinə doğru 40 kilometr irəliləyərək Xocavənddə və Hadrutda olduqca mühüm kəşfiyyat tapşırıqlarını yerinə yetirdilər. Lakin geri qayıdarkən ermənilərlə üz-üzə gəldilər. Düşmən onlara təslim olacaqları halda sağ qalacaqlarına zəmanət versə də, kəşfiyyatçılarımız təslim olmayıb döyüşə atıldılar. Mühasirədə olmalarına baxmayaraq, müxtəlif manevrlər edərək düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etdilər. Lakin qüvvələr bərabər deyildi. Qrupun 7 üzvü hərbi sursatları tükəndiyindən düşmənin əlinə keçməmək üçün bir yerə yığışaraq özlərini əl qumbarası ilə partlatdılar. Dəstənin 8-ci üzvü - çavuş Aqil Əhmədov isə ağır yaralanaraq huşsuz vəziyyətdə əsir düşdü. Deyilənə görə, ermənilər şəhid olmuş 7 kəşfiyyatçımızın nəşinin üstünə gül ləçəkləri tökərək öz əsgərlərinə nümunə göstəriblərmiş, baxmayaraq ki, onlardan belə etiraf gözləmək çətindir.

Əməliyyat zamanı şəhid olmuş hərbçilərin nəşləri Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində 6 aydan sonra geri alındı. Onlar Bakıda İkinci Fəxri xiyabanda dəfn olundular və hər biri ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi. Ulu Öndər huşsuz vəziyyətdə əsir düşən qrup üzvü, Ermənistanın barəsində ölüm hökmü çıxardığı çavuş Aqil Əhmədovu da əsirlikdən xilas etdi.



Bu günlər həmin döyüşlərdə qəhrəmancasına şəhid olmuş Dinar Mustafayevin ailə üzvləri ilə görüşdük. Anası Firəngiz xanım oğlunun vətənpərvərliyindən danışdı, bacıları Əsli, Yazanə, Turac və Şəfəq qardaşları haqqında yaddaşlarında qalmış hadisələri xatırladılar. Öyrəndik ki, Dinar 1977-ci ildə Qərbi Azərbaycanın Kəmbərək rayonu Gölkənd kəndində anadan olmuşdu. 1988-ci ildə ermənilər Qarabağda torpaq iddiasına düşəndə onların da ailəsi yurdlarından qaçqın düşüb Azərbaycana köçdü. İlk məskunlaşdıqları yer Şəmkirin Ələsgərli kəndi oldu. Ermənilərin Azərbaycan torpaqlarına təcavüzündən hiddətlənən, 1992-ci ildə Xocalı soyqırımında ermənilərin törətdikləri vəhşiliyə dözə bilməyən Dinar hərbi komissarlığa gələrək cəbhəyə getmək istədiyini bildirdi. Lakin yaşı az olduğundan onu orduya götürmədilər. Anası deyir ki, məskunlaşdıqları kəndin qəbiristanlığı evlərinin yaxınlığında idi: "Dinar hər dəfə qəbiristanlığın yanından keçib evə gələndə deyirdi ki, gec-tez mən də şəhid olacam və məni də həmin qəbiristanlıqda dəfn edərsiniz".





Bu gün ailənin evində Dinarın adına otaq ayrılıb. Orada çoxlu sayda şəkillər və müxtəlif əşyalar saxlanılır. Bu əşyalardan biri ağ əsgər örtüyüdür. Bacısı Əsli bildirdi ki, Dinarın qarda geyindiyi örtükdür: "Bir dəfə evə gələndə bizə dedi ki, mən şəhid olanda bu örtüyü mənə kəfən kimi geyindirərsiniz".

Əşyalar arasında Dinarın xatirə dəftəri diqqətimizi özünə cəlb etdi. Açıb oxuduq. Hər səhifəsində vətənpərvərlikdən, doğma yurda məhəbbətdən bəhs olunurdu. Yazdığı xatirələrdən biri belə idi: "Mən döyüş bölgəsində dayanıb Ağdama baxıram. Ermənilərin Ağdamda olan evlərə necə girib-çıxmağına baxa bilmirəm. Qismət olsun, torpaqlarımızı alıb, yurdlarımıza sahib çıxacağıq".

Doğmaları ilə söhbətdən o da məlum oldu ki, Dinar yaxşı qarmon çalırmış. Hətta anasına bir dəfə deyib ki, düşmənə qalib gələndən sonra gəlib onun üçün həyətlərində istədiyi mahnını ifa edəcək.

Vətənin keşiyində öz sinələrini sipər edən bu məğrur Azərbaycan övladlarının əziz xatirəsi dövlətimiz tərəfindən daim uca tutulur. 2005-ci ildə Dinar və onun kəşfiyyat yoldaşları Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən naminə" ordeni ilə təltif olunmuşlar. Bundan başqa, onların xatirəsinə "8 oğul istərəm" və "Kəşfiyyatçılar" sənədli filmləri çəkilmişdir. Şəmkir şəhərində isə Dinar Mustafayevin adını daşıyan küçə var.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ölməzliyə qovuşanlar

# Musiqi ilə başlanan, şəhidliklə bitən ömür

**Ömrü yarımçıq qalmış, cəmi 20 il yaşamış bir gəncin - ürəyi sevgi və Vətən eşqi ilə döyünən şəhidin hekayəsidir bu. Arzusu musiqiçi olmaq idi. Yaşının azlığına baxmayaraq, arzularını, xəyallarını sözlə deyil, musiqi ilə ifadə edirdi. Barmaqları qarmonun şirmayı dilləri üzərində gəzişdikcə sanki ürəyinin səsini dinlədir, arzularının nəğməsini çalırdı. Qarmonun yanğılı, həzin səsi onu uzaqlara - düşmən işğalı altında olan Qarabağa aparırdı. Fərid xəyalən o torpaqlarda gəzdikcə musiqinin ahəngi də dəyişərək döyüş marşına, cəngiyə, heyratıya çevrilirdi.**






Ömründə bir dəfə də olsun Qarabağı - Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri görməsə də, ruhən o yerlərə gedir, xəyalən həmin torpaqlarda dolaşır, ürəyində o yurdların həsrətini yaşayırdı. Ondan soruşanda ki, ən böyük arzun nədir, tərəddüdsüz deyirdi: "Qarabağı azad görmək".

27 sentyabr 2020-ci il… Düşmən yeni əraziləri işğal etmək niyyəti ilə hücuma keçəndə ön cərgədə onu qarşılayanlardan biri də Fərid oldu. O gün qəhrəman döyüşçü üzünü döyüş yoldaşlarına tutaraq demişdi: "Bu gün - Azərbaycan tarixinə torpaqlarımızın azadlığı uğrunda mübarizənin başladığı gün kimi yazılacaq. Bizim də adımız ana yurdumuzun xilaskarları kimi tarixə düşəcək". Fərid bilirdi ki, müharibəyə gedən döyüşçünün yolu əbədiyyət yoludur. Bu yolda can vermək də var. Amma onun üçün bir həqiqət daha uca idi. Təki Vətən sağ olsun!

Fərid Mehman oğlu Məmmədzadə 2000-ci il avqustun 20-də Ağdaşda dünyaya gəlmişdi. Ailənin ilk övladı idi. Fərid Teymur İsmayılov adına 8 saylı məktəbi bitirdikdən sonra təhsilini məcburi köçkün həyatı yaşayan Şuşa Musiqi Kollecində qarmon üzrə davam etdirmişdi.

Fərid 2019-cu il iyulun 5-də Vətənə xidmət etmək üçün yola düşəndə hələ sakitlik idi. O zaman valideynlərinə "oğlunuz bu torpağa bir qəhrəman kimi dönəcək", - demişdi.

Sentyabrın 27-si artıq musiqi susmuşdu. Qarmonun səsini avtomat silahlardan gələn səs, gurultu əvəz edirdi. Fərid anlayırdı ki, bu səslər torpaqlarımız azad olunmayınca susmayacaq. Oğullarımız "İrəli, Azərbaycan əsgəri" deyib hayqırırdılar. Mərmi gurultusuna qarışan bu səslər Vətən harayı idi. Səngər boyu irəliləyən gənc döyüşçü indi tarix yazırdı. Düşmənin hücumunun qarşısında ürəyi qisas hissi ilə alovlanan qəhrəman Fəridlərin iradəsi dayanmışdı. Oğullarımız yalnız irəliyə can atırdılar. İrəlidə isə illərdir onları gözləyən Vətən vardı.

Döyüş qızışdıqca Fərid illərlə içində saxladığı həsrəti nifrətə çevirmişdi. Hər addımında Qarabağın işğal altında qalan şəhərləri gözlərinin önündən keçdi. Ağdamın viran qalan evləri, Füzulinin səssiz küçələri, Şuşanın yaralı qayaları onu döyüşə səsləyirdi. O, təkcə düşmənlə vuruşmurdu, illərdir yurdumuzu yağmalayan ədalətsizliyə meydan oxuyurdu. Mərmilər başının üstündən yağış kimi yağırdı. Ayağının altında torpaq titrəyir, havadan barıt qoxusu gəlirdi. Güllə səsləri sanki döyüş meydanında ritm yaradırdı. Fərid bu ritmi tanıyırdı. Bu, onun bir vaxtlar qarmonda ifa etdiyi döyüş marşlarının ritmi idi.

Oktyabrın 4-ü Füzuli ərazisində qanlı döyüş gedirdi. Fərid komandirlərindən yeni döyüş tapşırığı almışdı. Bir anlıq səngərdə sükut yarandı. Sonra yenidən hücum… Fərid irəli atıldı. Gözlərində qorxu yox idi, çünki o, bu yolun dönüşü olmadığını bilirdi. Bilirdi ki, bu savaşda qalib gələn yalnız silah deyil, ruhdur. Və Fəridin ruhu düşməndən qat-qat güclü idi. O, bu döyüşə yaşamaq üçün yox, yaşatmaq üçün gəlmişdi. Bu torpaqlar azad olsun deyə, arzular yarımçıq qala bilərdi. Amma xalqın sabahı yarımçıq qalmamalı idi… Belə də oldu. Düşmən gülləsi ürəyi arzularla, Vətən sevgisi ilə dolu bir ürəyi susdurdu. Fərid ən uca şəhidlik məqamına yüksəldi.

Şəhid Fərid Məmmədzadə yarımçıq qalan ömrünü bütöv bir Vətən tarixinə çevirdi. O, silahı ilə torpağı, ruhu ilə xalqın qürurunu qorudu. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Kəlbəcərin azad edilməsinə görə" medalları ilə təltif olunan Fərid təkcə döyüş meydanında deyil, xalqın yaddaşında da əbədiləşdi. O, heç vaxt görmədiyi Qarabağı azad etdi, ömründə ayaq basmadığı torpaqlara canı ilə möhür vurub, qanı ilə qəhrəmanlıq tarixi yazdı. Qarmonu susdu, amma Vətən üçün çaldığı son qəhrəmanlıq marşı Azərbaycan tarixində əbədi olaraq səslənəcək. Bu gün aramızda olmasa da, bütün şəhidlər kimi Qarabağın hər daşında nəfəsi, Şərqi Zəngəzurun açıq səmasında ruhu var.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Hərbi qulluqçularımız Türkiyədə ixtisasartırma kursunu başa vurublar

**Hərbi Hava Qüvvələrimizin 3 nəfər hərbi qulluqçusu Türkiyə Respublikasının Ərzurum şəhərində təşkil olunmuş xilasetmə təlimlərində iştirak edib. Qardaş ölkədə keçirilən bu təlimlər çərçivəsində şəxsi heyət çətin təbii şəraitdə fəaliyyət bacarıqlarını artırıb.**



Hərbi qulluqçularımız "Qış dağçılığı və qış şərtlərində həyatda qalma, yaralının xilas edilməsi" mövzusunda təşkil olunan kursu uğurla tamamlayaraq müvafiq bilik və praktiki vərdişlərə yiyələniblər.

Təlimlər zamanı qarlı və dağlıq ərazilərdə hərəkət, ekstremal hava şəraitində sağ qalma, yaralılara ilkin tibbi yardımın göstərilməsi, eləcə də onların təhlükəsiz şəkildə təxliyəsi üzrə praktiki məşğələlər icra olunub.

Bu kimi ixtisasartırma kursları şəxsi heyətin sərt iqlim və mürəkkəb relyef şəraitində peşə hazırlığının gücləndirilməsinə, axtarış-xilasetmə əməliyyatları zamanı operativliyin və effektivliyin artırılmasına, eyni zamanda hərbi qulluqçuların bilik və bacarıqlarının beynəlxalq təcrübə əsasında daha da inkişaf etdirilməsinə xidmət edir.

# Naxçıvanda hərbi-vətənpərvərlik mövzusunda tədbir keçirilib

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Babək Rayon İcra Hakimiyyətində "Hərbi-vətənpərvərlik: Vətəndaşlıq borcumuz, konstitusion vəzifələrimiz və məsuliyyətimiz" mövzusunda tədbir keçirilib.**

"Şərq qapısı" xəbər verir ki, tədbirdə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova giriş sözü ilə çıxış edərək mövzunun əhəmiyyətindən danışıb.



Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək hər bir insanın vətəndaşı olduğu ölkə qarşısında müəyyən vəzifə və mənəvi məsuliyyət daşıdığını, bu isə vətəndaşlıq borcu və ya vətəndaşların konstitusion vəzifələri olduğunu, cəmiyyətdə hər bir şəxsin davranışı və fəaliyyəti isə onun əməllərində ifadə olunur. Elə əməllər ki, bunlar nə cəmiyyətə, nə də şəxsiyyətin mənafeyinə zərər vurmasın. Yəni hüquqauyğun davranış hesab edilsin. Hüquqauyğun davranış isə dövlətin hüquq normalarında nəzərdə tutulan ictimai və şəxsi mənafelərin ödənilməsinə yönəlmiş sosial-faydalı hərəkət olduğunu bildirmişdir. Sonra isə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin əməkdaşı, polkovnik-leytenant Vüsal Əliyev, Naxçıvan Hərbi Kollecinin əməkdaşı, polkovnik-leytenant Hikmət Hacıyev, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı İsgəndər İsgəndərli və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev mövzu ilə bağlı çıxış ediblər.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti Publik Hüquqi Şəxs aşağıdakı vəzifələri tutmaq üçün **müsabiqə elan edir**

**Fakültələr üzrə boş olan vəzifələr:**
Filologiya və Xarici dillər - dekan

**Kafedralar üzrə boş olan vəzifələr:**
1. Qrammatika və ingilis dilinin tədrisi - dosent, 1 yer, 0,5 ştat;
2. Fizika - baş müəllim, 1 yer, 0,5 ştat;
3. Sosial fənlər - baş müəllim, 1 yer.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" Qaydalarına və 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**ÜNVAN: AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.**
**Gəncə Dövlət Universiteti, əsas bina (I)**
**Telefon: (022) 266-01-89**

***Rəhbərlik***


# Bəzi yerlərdə duman olacaq, arabir güclənən külək əsəcək

**Azərbaycanda yanvarın 31-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-qərb küləyi arabir güclənəcək.

Havanın temperaturu gecə 3-6, gündüz 12-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunundan 753 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.



Havanın temperaturu gecə 0-5, gündüz 13-18 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 10-15 dərəcə isti olacaq.



# Bilmək istəyirəm

*- Hüquqi şəxsin yenidən təşkili bölünmə formasında hansı qaydada həyata keçirilir və bu zaman hüquqi varislik statusu kimə verilir? Prosedurlar barədə ətraflı məlumat verməyinizi xahiş edirəm.*

***Vidadi ƏHMƏDOV,***
***Quba rayonu***

- Sualınıza cavab olaraq bildiririk ki, hüquqi şəxsin yenidən təşkili Mülki Məcəllənin 55-ci, hüquqi şəxslər yenidən təşkil edilərkən hüquq varisliyi isə 56-cı maddəsində nəzərdə tutulmuşdur.

İlk olaraq hüquqi şəxsin yenidən təşkilinə gəlincə, Mülki Məcəllənin 55.1-ci maddəsinə əsasən, hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilə bilər. Həmçinin Məcəllənin 55.2-ci maddəsinə görə, qanunla müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin bölünməsi və ya tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması şəklində yenidən təşkili məhkəmənin qərarı ilə həyata keçirilir.

İstinad olunan normaların məzmunundan aydın olur ki, hüquqi şəxsin yenidən təşkili bölünmə formasında hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilir. Lakin qanunla müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin bölünməsi şəklində yenidən təşkili məhkəmənin qərarı əsasında baş tutur.

Məhkəmə qərarı əsasında həyata keçirilən bölünmə zamanı, öncə məhkəmə hüquqi şəxsin kənar idarəçisini təyin edir və ona hüquqi şəxsi yenidən təşkil etməyi tapşırır. Kənar idarəçinin təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Kənar idarəçi məhkəmədə hüquqi şəxsin adından çıxış edir, bölünmə balansını tərtib edib baxılmaq üçün onu yenidən təşkil nəticəsində yaranan hüquqi şəxslərin nizamnamələri ilə birlikdə məhkəməyə verir. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı, qanunvericiliyin tələblərinə riayət edilməklə yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün əsasdır.

Hüquqi şəxslər yenidən təşkil edilərkən hüquq varisliyi ilə bağlı sualınıza gəlincə, Mülki Məcəllənin 56.3-cü maddəsinə əsasən, hüquqi şəxs bölündükdə onun hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranmış hüquqi şəxslərə keçir.

*- Bizi 20 Yanvar Günü işə çağırdılar və 7 saat işlədik. Bu, qanunazidd deyilmi? Bilmək istəyirəm, həmin günə görə bizə əməkhaqqı verilməlidirmi?*

***Qurban ƏMİROV,***
***Bakı şəhəri***

- Sualınıza cavab vermədən öncə, vurğulamaq istərdik ki, 20 Yanvar - Ümumxalq Hüzn Günü xalqımız üçün həm kədərli, həm də qəhrəmanlıqla dolu yaxın tarixin ən mühüm hadisəsidir.

Əmək Məcəlləsinin 106-cı maddəsinə görə, hər il yanvarın 20-si Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin anım günü - Ümumxalq Hüzn Günüdür. Həmin gün iş günü hesab edilmir.

İşçilərin Ümumxalq Hüzn Günündə işə cəlb olunması aşağıdakı müstəsna hallarda mümkündür:

- dövlətin müdafiəsinin təmin olunması üçün, habelə təbii fəlakətin, istehsal qəzasının qarşısını almaq və ya onların nəticələrini aradan qaldırmaq üçün yerinə yetirilməsi zəruri olan ən vacib işlərin görülməsi zamanı;
- su, qaz və elektrik təchizatı, isitmə, kanalizasiya, rabitə və digər kommunal xidmət sahələrində işlərin, xidmətlərin pozulmasına səbəb olan gözlənilməz hadisələrin nəticələrini aradan qaldırmaq üçün zəruri işlərin görülməsini təmin etmək üçün;
- fasiləsiz istehsalatlar, ticarət, ictimai iaşə, rabitə, nəqliyyat və digər xidmət sahələrinin fəaliyyəti ilə əlaqədar olaraq.

Göstərilən hallardan başqa Ümumxalq Hüzn Günündə işçilərin işə cəlb olunması yolverilməzdir.

Əmək Məcəlləsinin 108-ci maddəsinin 1-ci hissəsinə görə Məcəllənin 91, 92 və 93-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olunmaqla, qalan iş yerlərində səsvermə, bu Məcəllənin 105-ci maddəsində göstərilən iş günü hesab edilməyən bayram günləri və Ümumxalq Hüzn Günündən bilavasitə əvvəl gələn iş gününün müddəti həftəlik iş günlərinin sayından asılı olmayaraq bir saat qısaldılır.

Ümumxalq Hüzn Günü işə cəlb edilən işçilərin əməyi Əmək Məcəlləsinin 164-cü maddəsində nəzərdə tutulan qaydada ödənilir. Əmək Məcəlləsinin 164-cü maddəsinin 1-ci hissəsinə əsasən, istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü görülən işə görə əməkhaqqı aşağıdakı kimi hesablanır:

- əməyin vaxtamuzd ödənilmə sistemində gündəlik (saatlıq) tarif maaşının iki mislindən aşağı olmamaqla;
- əməyin işəmuzd ödənilmə sistemində ikiqat işəmuzd qiymətlərindən aşağı olmamaqla;
- aylıq maaş alan işçilərə iş aylıq iş vaxtı norması çərçivəsində görülmüşsə, maaşdan əlavə gündəlik (saatlıq) vəzifə maaşı məbləğindən aşağı olmamaqla, əgər iş aylıq iş vaxtı normasından artıq vaxtda görülmüşsə, maaşdan əlavə gündəlik (saatlıq) vəzifə maaşının ikiqat məbləğindən aşağı olmamaqla.

Həmçinin normanın 2-ci hissəsinə görə, istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü işləmiş işçinin arzusu ilə ona əməkhaqqı əvəzinə başqa istirahət günü verilə bilər.

Beləliklə, Siz ümumxalq hüzn günü işə cəlb olunmusunuzsa, o zaman Sizə müvafiq əməkhaqqı ödənilməlidir.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev və administrasiyanın əməkdaşları Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əli Əhmədov ailəsi ilə birlikdə Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitə üzvləri Rəşad Mahmudov, Məlahət İbrahimqızı, Günay Əfəndiyeva, Kamaləddin Qafarov, İlham Məmmədov, Müşfiq Məmmədli, Soltan Məmmədov, Anatoliy Rafailov və Pərvanə Vəliyeva Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov və nazirliyin kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev və xidmətin kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin müavini Mədət Quliyev Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB ƏLİ OĞLU BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vaqif Şadlinski və Şöhrət Qasımov Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova və universitetin kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı
**QALİB BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3281
Sifariş 144

Qiyməti 60 qəpik